HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 41 (731) ■ 22 oktyabr 2014 | www.vergiler.az | Qiyməti: 40 qəp.


# Prezident İlham Əliyevin Tacikistana rəsmi səfəri



Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Tacikistan Respublikasına rəsmi səfər edib. Dövlətimizin başçısını Tacikistanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar. Oktyabrın 16-da Tacikistan Prezidenti Emoməli Rəhmonla Azərbaycan Prezidenti İlham Əliyevin təkbətək görüşü olub. Görüşdə dövlət başçıları ölkələr arasında ikitərəfli münasibətləri müzakirə ediblər. Prezident İlham Əliyev Tacikistana səfərindən məmnunluğunu ifadə edərək bildirib ki, hər iki ölkəni qədim tarix, mədəni əlaqələr birləşdirir və bu səfər dövlətlərimiz arasında münasibətlərin inkişafına yeni təkan verəcək.

Sonra hər iki dövlətin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib, daha sonra Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub. Prezidentlər İlham Əliyev və Emoməli Rəhmon «Azərbaycan Respublikası Prezidentinin və Tacikistan Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni imzalayıblar. «Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Tacikistanın xarici işlər naziri Sirociddin Aslov imzalayıblar. Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov və Tacikistanın xarici işlər naziri Sirociddin Aslov «Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalayıblar. «Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev və Tacikistanın səhiyyə və sosial müdafiə naziri Salimzoda Nusratullo imzalayıblar. «Azərbaycan Milli Elmlər Akademiyası və Tacikistan Respublikası Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və Tacikistan Elmlər Akademiyasının prezidenti Farxod Rahimi imzalayıblar.

İmzalanma mərasimi başa çatdıqdan sonra Tacikistan Prezidenti Emoməli Rəhmon və Azərbaycan Prezidenti İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış ediblər. Səfər zamanı Azərbaycan Prezidenti Düşənbənin «Dusti» meydanındakı «Tacikistanın milli həmrəyliyi və dirçəlişi» xatirə kompleksində İsmoili Somoni abidəsini ziyarət edib, önünə əklil qoyub.

Daha sonra dövlətimizin başçısı Tacikistan Milli Universitetində olub. Prezident İlham Əliyevə ali təhsil ocağının kitab fondunda saxlanılan qədim əlyazmalar haqqında məlumat verilib. Burada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin «Xəmsə»sinə daxil olan bir neçə əsərin orta əsrlərə aid əlyazmaları da var. Sərgidə, həmçinin, ümummilli lider Heydər Əliyev, Azərbaycan və Tacikistan prezidentləri İlham Əliyev və Emoməli Rəhmon haqqında kitablar nümayiş olunur. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyev haqqında tacik dilində çap olunmuş kitabı imzalayıb.

Sonra Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomunun təntənəli təqdim edilməsi mərasimi keçirilib. Universitetin rektoru Mahmaisuf İmomov Fəxri Doktor diplomunu və universitetin Elmi Şurasının fəxri üzvü mantiyasını Azərbaycan Prezidentinə təqdim edib. Dövlətimizin başçısı ona verilən yüksək ada görə təşəkkürünü bildirib: «Bu, mənim üçün böyük şərəfdir və bunu təkcə mənim xidmətlərimə deyil, həm də ölkəmizə - Azərbaycana hörmət əlaməti hesab edirəm».

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistana səfəri çərçivəsində bu ölkənin parlamentinin aşağı palatasının sədri Şükürcon Zuxurovla da görüşüb. Görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirilib, ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində parlamentlərin rolunun əhəmiyyəti vurğulanıb. Bildirilib ki, dərin tarixi və mədəni əlaqələrə malik olan Azərbaycan ilə Tacikistan dost və tərəfdaş ölkələrdir. Ölkələrimizin daha da yaxınlaşmasında ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olub. Səfər çərçivəsində Azərbaycan və Tacikistan prezidentlərinin imzaladıqları Birgə Bəyannamə əməkdaşlığın daha da dərinləşdirilməsinə böyük töhfə verəcək.

Prezident İlham Əliyev Tacikistanın Baş naziri Koxir Rasulzoda ilə də görüşüb. Görüşdə ikitərəfli münasibətlərin perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidentinin bu səfərinin əlaqələrimizin daha da dərinləşdirilməsində böyük rol oynayacağı qeyd edilib.

# Dövlət başçısı regionlarda olub



Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də Daşkəsən rayonuna səfər edib. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə ümummilli lider Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər.

Heydər Əliyev Mərkəzinin açılış mərasimində iştirak edən dövlətimizin başçısına bildirilib ki, Mərkəz şəhərin görkəminə xüsusi gözəllik verir. Buradakı foto və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən yüksəliş mərhələsinə qədəm qoyması və hazırkı hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Bu cür mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsən Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, yeni tikilən inzibati bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Binadakı otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına, rayon icra hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyətinə geniş imkan yaradır. Akt zalında tədbirləri yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Binada kitabxana, iclas və konfrans zalları var.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsəndə yeni avtovağzal kompleksinin açılışında iştirak ediblər. Yeni avtovağzal ən müasir tələblər səviyyəsindədir. Avtovağzalın tikinti sahəsi 500 kvadratmetrdir. Ərazisi bir hektara yaxın olan avtovağzal kompleksinin tikintisinə 2013-cü ilin martında başlanılıb və bu ilin oktyabrında başa çatdırılıb. Avtovağzalın gözləmə salonunda hər cür imkanlar mövcuddur. Burada ana və uşaq otağı da var. Kompleksdə sərnişinlərin əşyalarının saxlanması üçün kameralar yaradılıb. Dispetçer otağı da yüksək səviyyədə xidmət üçün müvafiq şəraitə malikdir.

Dövlətimizin başçısı və xanımı Daşkəsəndə Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında da iştirak ediblər. Məlumat verilib ki, ərazisi 2250 kvadratmetr olan mərkəz respublikada ən böyük gənclər mərkəzlərindən biridir. Prezident İlham Əliyevə məlumat verilib ki, binanın ikinci mərtəbəsində mehmanxana fəaliyyət göstərəcək. Kompleksdə 6 kottec inşa olunub. Burada da istirahət üçün hər cür şərait yaradılıb.

Daşkəsənə səfərini başa çatdıran Prezident oktyabrın 17-də Naftalan şəhərinə gəliblər, xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Naftalanda «Qarabağ SPA and Resort» otel kompleksinin açılışında iştirak ediblər. Məlumat verilib ki, 13 hektardan çox sahəsi olan kompleksin əhəmiyyətini artıran mühüm cəhətlərdən biri onun yerləşdiyi ərazidə çoxsaylı istirahət məkanlarının olmasıdır. Helikopter meydançasının olduğu kompleksdə 8 kilometr uzunluğunda gəzinti yolları və geniş yaşıllıq zolaqları salınıb. SPA terapiya üsullarına geniş yer verilən oteldə 132 otaq var. Digər mühüm cəhət burada çalışanların böyük əksəriyyətinin yerli işçilər olmasıdır.

Dövlətimizin başçısı «Naftalan Hotel by Rixos» otelinin yeni korpusunda yaradılan şəraitlə tanış olub. Bildirilib ki, 2013-cü ilin aprelinədək «Qaşaltı» sanatoriyası adı altında fəaliyyət göstərən oteldə keçən il yenidənqurma işləri aparılıb. Sağlamlıq Mərkəzi Korpusunda Naftalan terapiyası ilə yanaşı, SPA terapiya, fizioterapiya və reabilitasiya, o cümlədən fitnes bölmələri fəaliyyət göstərir. Oteldə su prosedurları korpusu da yaradılıb. Yaxın gələcəkdə burada müasir rentgen, ultrasəs müayinəsi, stomatologiya, urologiya, kardiologiya, laboratoriya, hərəkət orqanları və dəri xəstəlikləri şöbələri fəaliyyət göstərəcək.

Oktyabrın 18-də Azərbaycan Prezidenti və xanımı Mehriban Əliyeva Goranboy rayonuna səfərə gəliblər. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Goranboy rayonunun mərkəzindəki abidəsini ziyarət edən dövlətimizin başçısı və xanımı sonra Heydər Əliyev Mərkəzinin, «Goranboy» paylayıcı elektrik məntəqəsinin, Goranboy-Yuxarı Ağcakənd avtomobil yolunun açılış mərasimlərində iştirak ediblər. Goranboy şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihəsinin icrasının başa çatması ilə əlaqədar təşkil olunan mərasimdə iştirak edən dövlətimizn başçısı sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Bildirib ki, sürətlə inkişaf edən ölkəmizin bütün bölgələri kimi, Goranboy rayonunda da bütün problemlər həll olunur, infrastruktur layihələri həyata keçirilir, sosial layihələrə diqqət yetirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərinə səfərə gəliblər. Dövlətimizin başçısı və xanımı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, şəhərdəki «İmamzadə» kompleksində aparılan təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanış olublar. Məlumat verilib ki, kompleksin ərazisinin 10 min kvadratmetrinə asfalt örtüyü salınıb, səkilərə bəzək daşları döşənib, müasir işıqlandırma sistemi quraşdırılıb, mükəmməl infrastruktur yaradılıb. Burada 42 metr hündürlüyündə 2 minarə, namazgah və ziyarət zalı tikilib. Ərazidə 500 avtomobil üçün 2 dayanacaq inşa edilib. İki zaldan ibarət namazgahda nəfis xəttatlıq işləri görülüb və kaşı materialla örtülüb. Layihəni icra edən «Gəncəkörpütikinti-2» Səhmdar Cəmiyyəti ziyarətgahda təmir bərpa və tikinti işlərini apararkən qədim memarlıq üslubunu saxlamağa xüsusi diqqət yetirib.

Dövlətimizin başçısı və xanımı beşinci imam Məhəmməd Bağırın oğlu İbrahimin məzarının yerləşdiyi türbədə olublar. Bildirilib ki, 200 kvadratmetr ərazini əhatə edən qurbangahda da işlər tamamlanır. Ziyarətgahın üçmərtəbəli əsas binasında təmir işləri başa çatır. Birinci mərtəbəsi dəstəmazgah, ikinci mərtəbəsi inzibati otaqlar, üçüncü mərtəbəsi isə mehmanxanadan ibarət olan binada zəvvarlar üçün hər cür şərait yaradılıb.

Prezident İlham Əliyev Gəncə şəhərində «Stadler» vaqon istehsalı zavodunun təməlqoyma mərasimində iştirak edib. Bildirilib ki, İsveçrənin «Stadler Rail Group» şirkəti ilə Azərbaycanın «Railway İnternational Distribution» Məhdud Məsuliyyətli Cəmiyyəti arasında imzalanan müqavilənin şərtlərinə əsasən, Gəncə şəhərində ilkin olaraq ildə 60 vaqon istehsal gücünə malik zavod inşa ediləcək. Zavodun 2016-cı ildə fəaliyyətə başlaması planlaşdırılır. Burada istehsal olunacaq vaqonların Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və İrana satılması da nəzərdə tutulub.

Azərbaycan Prezidenti və xanımı Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlqoyma və Gəncə şəhərində inşa olunan 2 nömrəli körpələr evi-uşaq bağçasının, 4 nömrəli tam orta məktəbin yeni korpusunun açılış mərasimlərində də iştirak ediblər, Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Dövlətimizin başçısı və xanımı Gəncə şəhərindəki Heydər Əliyev Parkında da olublar. Məlumat verilib ki, orijinal layihə əsasında salınan, möhtəşəmliyi və əzəməti ilə seçilən parkın girəcəyindəki «Zəfər tağı»nın açıq seyrəngahından şəhərin və Heydər Əliyev Parkının mənzərəsini seyr etmək mümkündür. Göz oxşayan xiyabanda geniş yaşıllaşdırma işləri həyata keçirilib və istirahət üçün hər cür şərait yaradılıb. Bundan başqa, park kompleksində müxtəlif iaşə obyektləri, əyləncə mərkəzləri, istirahət guşələri var.


2 Vergi borclarının məbləği azalıb

3 Elektron xidmətlərin əhatə dairəsi böyüyür

4 2015-ci ildə qeyri-neft sektorunda vergi daxilolmalarının həcmi artacaq

5 Regionların inkişafının yeni mərhələsi

# Vergi borclarının məbləği azalıb

*2014-cü ilin ilk doqquz ayı ərzində vergi ödəyicilərinin dövlət büdcəsinə olan borc məbləği ilin əvvəli ilə müqayisədə 5,4%, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 3,3% azalıb.*

Doqquz ay ərzində ümumilikdə 180 min 689 vergi ödəyicisinin borcları tamamilə ləğv edilib, 1 oktyabra olan məlumata əsasən, borclu vergi ödəyicilərinin sayının ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi 5,6% təşkil edib.

Vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə vergi orqanları tərəfindən 60 min 2 sayda əmlakın siyahıya alınması barədə qərar açılıb, bu qərarların 72,4%-i borclar ləğv edildiyi üçün bağlanıb, siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılması məqsədilə məhkəmələrə verilmiş iddia ərizələri üzrə 1 milyon 400,5 min manat borc məbləğini əhatə edən 587 məhkəmə qətnaməsi qəbul olunub. Ümumilikdə, əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 45,2 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Fiziki şəxslərin borclarının onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi nəticəsində 11.237 vergi ödəyicisinin 11,7 milyon manatdan çox borcunun dövlət büdcəsinə alınması təmin edilib, 12 vergi ödəyicisinin nəqliyyat vasitələri siyahıya alınıb, 468 vergi ödəyicisi tərəfindən nəqliyyat vasitələri siyahıya alınmaya təqdim edilmədiyi üçün üzərlərinə həbs qoyulmaqla onların cərimə meydançalarında yerləşdirilməsi məqsədilə məhkəmələr tərəfindən müvafiq qərarlar qəbul edilib.

Hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış edən borclu fiziki şəxslərin borclarının həmin hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə qanunamüvafiq tədbirlər görülərək 1009 fiziki şəxs üzrə 637,7 min manat məbləğində borcun dövlət büdcəsinə ödənilməsi təmin edilib.

51 min 194 borclu vergi ödəyicisinin borclarının onların milli və ya xarici valyutada cari və digər hesablarından tutulması məqsədilə banklara və ya digər kredit təşkilatlarına 653 min 347 icra (ödəniş) sənədi olan sərəncam verilib.

Vergi orqanları tərəfindən 706 borclu fiziki şəxsin ölkədən getmə hüququnun məhdudlaşdırılması, habelə kiçik həcmdə borcları olan 2 940 vergi ödəyicisinin borclarının tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə aidiyyəti üzrə icra məmurlarına müraciətlər edilib.

Xeyli və ya külli miqdarda vergiləri dövlət büdcəsindən yayındırdığına görə ümumilikdə 606 vergi ödəyicisi üzrə 26,9 milyon manat borc məbləğini əhatə edən materiallar ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib.

# «ASAN xidmət» Lordlar Palatasında nümunə kimi göstərilib

*Avropa Azərbaycan Cəmiyyəti (TEAS) tərəfindən innovativ Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi (ASAN) haqqında təqdim edilən məlumat Böyük Britaniya parlamentinin Lordlar Palatasının elektron bacarıqlar üzrə komitəsinin hazırladığı rəsmi hesabatda dərc edilib. Məlumat Avropa Azərbaycan Cəmiyyətinin direktoru Lionel Zetter tərəfindən təqdim olunub.*

L.Zetter deyib ki, Böyük Britaniya hökuməti də «ASAN» modelinin nailiyyətlərindən bəhrələnə bilər. İctimai xidmətlər üçün mərkəzi və yerli hökumət büdcələrinin azaldıldığı, lakin ictimaiyyətin hələ də yüksək standartlara cavab verən xidmətlər gözlədiyi Böyük Britaniyaya münasibətdə bu cür yanaşmaların konseptuallaşdırılması məqsədəuyğun olardı.

Sənəddə qeyd edilir ki, «ASAN xidmət» kimi innovasiyalar xidmət göstərənlər arasında bölüşülən məlumat həcminin artması və bununla səmərəliliyin yüksəlməsi və qiymətlərin aşağı salınmasına xidmət edir.

Təqdim olunan məlumata əsasən, «ASAN xidmət»lə bağlı bütün ödənişlər internet vasitəsilə həyata keçirilir və göstərilən xidmətlərin keyfiyyəti və sürəti Böyük Britaniyadakından daha yüksəkdir. Rəqəmsal innovasiyalar vasitəsilə xidmətlər daha da çevik və səmərəli olub və korrupsiya əməliyyatları üçün imkanlar aradan qaldırılıb. Qeyd etmək lazımdır ki, hazırda Böyük Britaniyada pilot mərhələsində olan «Universal Credit» əməliyyat konsepsiyasının da həyata keçirilməsinə start verilib.




Hesabatda məqsədi korrupsiya hallarının aradan qaldırılması və səmərəliliyin artırılması olan «ASAN» konsepsiyası haqqında ətraflı məlumat verilir. Bildirilir ki, «ASAN xidmət» mərkəzləri tamamilə şəffaf, korrupsiyadan azad zonalardır. Mərkəzlər müxtəlif dövlət qurumlarını bir araya gətirərək ictimai xidmət göstərir. Vurğulanır ki, hesabatlılıq «ASAN xidmət»in təməl daşıdır.

# Dövlət büdcəsinin gəlir və xərcləri artacaq

*Azərbaycan hökuməti 2015-ci ilin büdcə zərfini müzakirə və qəbul edilməsi üçün parlamentə göndərib. Milli Məclisdən verilən məlumata görə, millət vəkilləri sənədlə tanış olduqdan sonra yaxın günlərdə komitə iclaslarında büdcənin müzakirələrinə başlanılacaq. Büdcə zərfinə daxil olan sənədlər «Azərbaycanın 2015-ci il dövlət büdcəsi haqqında», «Azərbaycanda 2015-ci il üçün yaşayış minimumu haqqında», «Azərbaycanda 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında», «Dövlət Sosial Müdafiə Fondunun 2015-ci il büdcəsi haqqında» qanunlardan və Milli Məclisin, Hesablama Palatasının gələn il üçün xərclər smetalarından ibarətdir.*

Maliyyə Nazirliyinin açıqladığı büdcə layihəsində göstərilir ki, Azərbaycanın 2015-ci ildə icmal büdcəsinin gəlirləri 20,7 milyard manat, xərcləri isə 25,9 milyard manat təşkil edəcək.



İcmal büdcənin tərkib hissəsi olan dövlət büdcəsinə gəlincə, burada gəlirlər 19,4 milyard manat (5,7% artım), xərcləri isə 21,1 milyard manat (5,2% artım) proqnozlaşdırılır. Dövlət büdcəsinin kəsiri 1,7 milyard manat təşkil edəcəyi gözlənilir.

Gələn il Dövlət Neft Fondu, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə daxilolmalar artacaq. Dövlət Neft Fondundan dövlət büdcəsinə 10,4 milyard manat (ötən ildən 1,05 milyard manat və ya 11,3% cox) vəsaitin transfert olunacağı gözlənilir. Vergilər Nazirliyinin xətti ilə büdcə daxilolmaları 7112 milyard manat, Dövlət Gömrük Komitəsinin xətti ilə 1,6 milyard manat təşkil edəcək. Büdcə təşkilatlarının sifarişləri əsasında ödənişli xidmətlərdən dövlət büdcəsinə 300 milyon manat vəsaitin daxil olacağı gözlənilir. Gələn ilin dövlət büdcəsindən əsaslı xərclərə 9,4 milyard manat vəsait nəzərdə tutulub ki, bu da cari illə müqayisədə 11,5% çoxdur.

Onu da qeyd edək ki, Vergilər Nazirliyi xətti ilə daxilolmaların 67,7%-i qeyri-neft sektoru, 32,3%-i neft sektorunun payına düşür. Bu isə iqtisadiyyatın qeyri-neft bölməsində inkişaf tendensiyasının sürətlənməsindən xəbər verir.

2015-ci ilin dövlət büdcəsi layihəsinin neft gəlirləri bölməsində xam neftin bir bareli 90 ABŞ dolları, manatın məzənnəsi 0,784 manat olmaqla hesablanıb. 2014-cü ilin dövlət büdcəsi ilə müqayisədə 2015-ci ildə xam neftin bir barelinin 10 dollar aşağı qiymətlə hesablanması hazırda dünya neft bazarında baş verən ucuzlaşma ilə əlaqədardır. Ekspertlərin qənaətinə görə, neftin qiymətinin kəskin ucuzlaşması tendensiyası fonunda bu cür tədbirlərin görülməsi zəruridir.

Dövlət Neft Şirkətindən verilən məlumata görə, dünya bazarlarında «Azəri Layt» markalı xam neftin bir barelinin orta satış qiyməti cari ilin yanvar-sentyabr aylarında 108,2 ABŞ dollar səviyyəsində olmuşdur. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 dollar ucuzdur. Hazırda London birjalarında «Azəri Layt» markalı xam neftin bir barelinin qiyməti 90 dollar civarındadır. Neftin kəskin ucuzlaşması hasilatın artması, tələbatın azalması fonunda baş verir. Beynəlxalq Energetika Agentliyinin son proqnozlarına görə, dünyada neftə olan sutkalıq tələbat 1,3 milyon bareldən 700 min barelədək aşağı düşüb.

Maliyyə Nazirliyinin açıqladığı rəsmi açıqlamada isə bildirilir ki, dünya bazarında neftin qiymətinin azalmasına təsir edən amillərdən biri də ABŞ-ın karbohidratların istehsalını artırması (sutkada 11,5 milyon barel) və ilin əvvəlindən neft idxalını azaltmasıdır. Xatırladaq ki, ötən ildən ABŞ təbii qaz idxalını dayandırıb, hazırda isə neft idxalını azaltmağa calışır.

Maliyyə Nazirliyinin ekspertləri hesab edirlər ki, Avropa İttifaqı ölkələrinin iqtisadiyyatlarının zəif inkişafı regionda neftə tələbatın azalmasına səbəb olub. Hazırda Şərqi Asiya ölkələri (Çin, Hindistan) üzrə enerji ehtiyatlarının idxalı artıb. Lakin ötən dövr ərzində həmin ölkələrdə iqtisadi artım templəri proqnozlaşdırılan səviyyədən aşağı düşüb ki, bu da neftin qiymətinin azalmasına təsir göstərən amillərdəndir.

**Rəşad SADIQOV**

# Azərbaycan Respublikası Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən vətəndaşlar üçün müsabiqə ELAN EDİR

Müsabiqəyə sənədlər elektron ərizə vasitəsilə 2014-cü il oktyabrın 20-dən noyabrın 2-si saat 24-dək qəbul edilir. İştirak etmək istəyənlər göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə kod verilir. Namizəd sənədləri qəbul edildikdən üç iş günü ərzində verilmiş kod əsasında ərizəsinin qəbul edilib-edilmədiyi barədə məlumat ala bilər.

Sənədləri qəbul edilən namizədlər 2014-cü il noyabrın 13-15-də saat 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 2014-cü il noyabrın 16-da TQDK-nın müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

«Elektron ərizə» formasını doldurmazdan əvvəl namizədlər «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları» ilə tanış olmalı, bu qaydalarla razı olduqları halda qeydiyyatdan keçməlidirlər. Elektron poçtu olan namizədlərin poçt ünvanına qeyd olunan qaydalar və müsabiqə ilə bağlı digər zəruri məlumatlar göndərilir.

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda 012-403-81-35 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

***Diqqət!*** *Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan iqtisadçı və hüquqşünaslara üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adı, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.*

Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar yalnız aşağıda qeyd olunan vakant yerlərdən birinə işə qəbul edilməsi üçün ərizə ilə müraciət edə bilərlər.

Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd ərizəsində göstərdiyi vakant yer üzrə vəzifədə işləməkdən imtina edərsə Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılır!

| MÜSABİQƏYƏ ÇIXARILAN VAKANT VƏZİFƏLƏRİN SİYAHISI: |
|---|
| **3 saylı Ərazi Vergilər İdarəsi (Quba şəhəri)** |
| Koordinasiya şöbəsinin böyük mütəxəssisi |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| Qeydiyyat və uçot şöbəsinin dövlət vergi müfəttişi |
| **4 saylı Ərazi Vergilər İdarəsi (Şamaxı şəhəri)** |
| Operativ nəzarət şöbəsinin dövlət vergi müfəttişi |
| **5 saylı Ərazi Vergilər İdarəsi (Şirvan şəhəri)** |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| **8 saylı Ərazi Vergilər İdarəsi (Beyləqan şəhəri)** |
| Vergi proqnozları və risklərin təhlili şöbəsinin dövlət vergi müfəttişi |
| **9 saylı Ərazi Vergilər İdarəsi (Göyçay şəhəri)** |
| Vergi ödəyicilərinə xidmət şöbəsinin dövlət vergi müfəttişi |
| Vergi borclarının alınması şöbəsinin dövlət vergi müfəttişi |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| **12 saylı Ərazi Vergilər Departamenti (Gəncə şəhəri)** |
| Bəyannamələrin kameral yoxlanması şöbəsinin dövlət vergi müfəttişi |
| Operativ nəzarət şöbəsinin dövlət vergi müfəttişi |
| Qeydiyyat və uçot şöbəsinin dövlət vergi müfəttişi |
| **13 saylı Ərazi Vergilər İdarəsi (Zaqatala şəhəri)** |
| Vergi proqnozları və risklərin təhlili şöbəsinin dövlət vergi müfəttişi |
| **Zəngilan Rayon Vergilər Şöbəsi (Bakı şəhərində yerləşir)** |
| Vergi borclarının məcburi alınması işinin təşkili bölməsinin dövlət vergi müfəttişi |
| **Cəmi: 14 yer.** |
| ***Qeyd:*** *Müsabiqənin sonuna qədər vakant yerlərin sayı dəyişə bilər.* |

## RƏQƏMLƏRİN DİLİ İLƏ...

- 2014-cü ildə Vergilər Nazirliyi vergi orqanlarına işə qəbulla bağlı sayca 2-ci müsabiqə keçirir. Birinci müsabiqədə iştirak etmək üçün 2303 nəfər müraciət etmişdi. Onlardan sənədləri qəbul olunanların sayı 1931, test imtahanında müvəffəqiyyət qazananlar 76, müsabiqədə müvəffəqiyyət qazananların sayı isə 58 nəfər təşkil edib. Müsabiqədən keçənlərdən 55 nəfəri işlə təmin olunub.
- Vergilər Nazirliyi 2005-ci ildən (2010-cu il istisna olmaqla) vergi orqanlarına işə qəbulla bağlı müsabiqələr keçirir və indiyədək müsabiqədə iştirak üçün müraciət edənlər 11.564 nəfər, sənədləri qəbul olunanlar 9913 nəfər, test imtahanından müvəffəqiyyət qazananlar 1545 nəfər, müsabiqədən keçənlər 1130 nəfər, işlə təmin olunanlar 1056 nəfər, kadr ehtiyatından çıxarılanlar isə 71 nəfər olub.

# Elektron xidmətlərin əhatə dairəsi böyüyür



*«Elektron Azərbaycan» Dövlət Proqramı çərçivəsində həyata keçirilən «E-hökumət» layihəsi vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına və informasiya tələbatının dolğun ödənilməsinə şərait yaradır. Layihənin istismara verilməsindən qısa bir müddət keçsə də, portal vasitəsilə e-xidmətlərdən yararlanan vətəndaşların sayı günbəgün artır. Müsahibimiz rabitə və yüksək texnologiyalar nazirinin müşaviri Müşfiq Əmirovdur.*

***- Müşfiq müəllim, istifadəçilərin sayı artıq 1 milyona yaxınlaşan «Elektron hökumət» portalını populyarlaşdıran başlıca amil nədir?***

- «Elektron hökümət» modern və çevik idarəetmənin və şəffaflığın təmin edilməsində, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasında və bürokratik əngəllərin aradan qaldırılmasında, ən əsası isə əhaliyə elektron xidmətlərin göstərilməsində mühüm vasitədir. Bu sistem köhnə bürokratik cəmiyyətin məhdudlaşdırdığı imkanları əhaliyə rəqəmsal, şəffaf şəkildə təqdim etmək, əhalinin sosial rifahının yüksəldilməsi və iqtisadiyyatın inkişafı üçün səmərəli şərait yaradır. Portal dövlət qurumlarının təqdim etdiyi elektron xidmətlərdən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə səmərəli və rahat istifadə imkanı verir.

Hazırda «Elektron hökumət» portalında isifadəçilərə 41 dövlət qurumu üzrə 373 elektron xidmət göstərilir. 2014-cü ilin avqust ayının 31-nə qədər portala 852.585 nəfər daxil olub və elektron xidmətlərdən istifadə üçün 3.735.355 müraciət edilib.

Əminliklə deyə bilərik ki, məqsədə çatmaq istiqamətində xeyli yol qət edilib. «Elektron hökumət» portalının inkişafı, təkmilləşdirilməsi və istifadəçilərə yeni imkanlar yaradılması məqsədilə digər dövlət qurumları ilə birgə işlər aparılır.

***- Portal daim yeni xidmətlərlə zənginləşir. Ümumiyyətlə, bu sahədə hansı yenilikləri xüsusi vurğulamaq olar?***

- «Elektron hökümət» portalı «Mənim xidmətlərim» servisi vasitəsilə istifadəçiyə öz maraq dairəsində olan və daha çox istifadə etdiyi elektron xidmətləri qruplaşdırmaq imkanı yaradır. Artıq istifadəçi portala daxil olaraq çoxsaylı xidmətlər arasından özünə lazım olanı axtara biləcək və vaxt itirmək məcburiyyətində qalmayacaq. Məsələn, ödəmə ilə bağlı elektron xidmətlərdən istifadə edən istifadəçi, sadəcə, bir düymə ilə həmişə istifadə etdiyi ödəniş xidmətlərini, eləcə də daha çox faydalandığı digər xidmətləri bir bölmədə toplamağa nail olacaq. Bu xidmətdən istifadə etməklə istənilən sayda xidmət qrupu yaratmaq və bir qrupda istənilən sayda xidmət yerləşdirmək mümkündür. Bununla yanaşı, xidmət qrupunu ləğv etmək və ya qrupdan hansısa xidməti çıxarmaq da olur. «Mənim xidmətlərim» vətəndaşın fərdi xidmət portfeli rolunu oynayaraq vaxta qənaət və rahatlığın təminatının optimal üsuludur.

Portalda yaradılmış daha bir xidmət «Əks-əlaqə»dir. Onun vasitəsilə istifadəçilərin hər hansı bir servisin fəaliyyəti ilə bağlı rəy və şikayətləri birbaşa xidməti təqdim edən quruma yönləndirilir. Bununla da həmin qurumun nümayəndəsi ilə istifadəçi arasında onlayn rejimdə yazışmalar aparıla bilər.

Portalın indeksləşmə sisteminin yenilənməsi və avtotamamlama servisin tətbiqi ilə kontent üzrə axtarış daha da effektivləşdirilib. Əgər əvvəllər vətəndaşlar banklarda müəyyən əməliyyatların aparılması üçün müxtəlif idarə və təşkilatlardan əldə etdikləri müvafiq arayışları, sənədləri banka təqdim etməli idilərsə, bu gün «E-hökumət» portalında yeni istifadəyə verilmiş xidmətin köməyi ilə bunlara ehtiyac qalmır. Artıq «E-hökumət» portalının istifadəçisi «Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi» xidməti vasitəsilə özünə aid olan zəruri fərdi məlumatları siyahıdakı müvafiq banka elektron şəkildə göndərə bilir. Hələlik bu siyahıya bir bank qoşulsa da, yaxın gələcəkdə bu göstəricinin artması istiqamətində danışıqlar aparılır. Banka göndərilən e-arayışın unikal nömrəsi vətəndaşa təqdim olunur ki, zərurət yarandıqda, bankla əlaqə saxlayıb həmin kodu təqdim etməklə arayışın baxılması vəziyyəti ilə tanış ola bilsin. Yaxın vaxtlarda tətbiq ediləcək xidmət vasitəsi ilə bu xidmətə yazılmış vətəndaşların e-poçt ünvanına aylıq dərc olunan «Elektron hökumət» bülletenləri elektron formada ödənişsiz olaraq göndəriləcəkdir.

***- «Elektron qəbul otağı»nın yaradılması nə məqsəd daşıyır və konkret olaraq hansı xidməti əhatə edəcək?***

- Hazırda «Elektron hökumət» portalında «Rəsmi yazışmalar» bölməsinin başa çatdırılaraq əhalinin istifadəsinə verilməsi üçün aparılan işlər yekunlaşmaq üzrədir. «Dövlət qurumlarının vəzifəli şəxslərinin qəbuluna onlayn yazılmaq» və «Dövlət qurumlarına onlayn müraciət» elektron xidmətləri «Rəsmi yazışmalar» bölməsində istifadəyə veriləcək. Bundan sonra vətəndaşlar qeydiyyatdan keçərək həm dövlət qurumlarının vəzifəli şəxslərinin qəbuluna yazıla, həm də istənilən dövlət qurumuna öz ərizə və şikayətlərini göndərə biləcəklər. Qeyd etmək lazımdır ki, bu xidmət vasitəsilə qəbula yazılmalar və göndərilən şikayətlər sistem tərəfindən izlənəcək və icra müddətlərinə avtomatik nəzarət olunacaq. İcra müddətində baxılmayan müraciətlər portalda xüsusi bölmədə göstəriləcək.

Bu layihə çərçivəsində «Elektron qəbul otağı»nın yaradılması da nəzərdə tutulub. Bu, yuxarıda qeyd olunan e-xidmətlərdən vətəndaşların yerlərdə geniş şəkildə istifadə edə bilmələri üçün şərait yaradılmasına, onların e-imza ilə və ya kod-parolla təmin edilmələrinə və əhali arasında maarifləndirmə xarakterli işlərin aparılmasına xidmət edəcək. Bu məqsədlə yerlərdə telekommunikasiya qovşaqlarında xüsusi otağın ayrılması, lazımi avadanlıqlarla təchiz edilməsi və tam şəkildə təlimatlandırılmış işçilərin hazırlanması nəzərdə tutulur. Hesab edirik ki, «Elektron qəbul otağı»nın yaradılması yerlərdə vətəndaşların «Elektron hökumət» portalının imkanlarından daha səmərəli şəkildə faydalanmalarına təkan vermiş olacaq.

İlkin mərhələdə «Elektron qəbul otağı»nın «Aztelekom» İstehsalat Birliyinin rayon telekommunikasiya qovşaqlarında yaradılması nəzərdə tutulur.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Vergi orqanı əməkdaşları beynəlxalq təlimdə iştirak ediblər

*Oktyabrın 16-17-də «KPMG Azərbaycan Limited» şirkətinin və Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin təşəbbüsü ilə «İş vaxtının səmərəli idarə edilməsi» və «Təqdimat bacarıqları» mövzularında treninq keçirilib.*

Vergilər Nazirliyinin mərkəzi aparatının əməkdaşlarının iştirak etdikləri tədbirin ilk günü təqdimat bacarıqlarının təkmilləşdirilməsinə həsr edilib. İştirakçılar peşəkar şəkildə təqdimat, auditoriya qarşısında çıxış etmək, o cümlədən effektiv təqdimatlar hazırlamağın yollarını öyrəniblər.

KPMG şirkətinin təlimçisi Aidə Ələkbər qeyd edib ki, öz işini peşəkar səviyyədə bilməklə yanaşı, gördüyün işi layiqincə təqdim etməyi bacarmaq günümüzün tələbidir. Buna görə də icra olunan funksiyaların sistemli təqdim olunmasına böyük ehtiyac var. Təlim zamanı öyrənilən nəzəri məlumatlardan istifadə edərək hər bir iştirakçıdan müəyyən mövzu üzrə təqdimat etmək tələb olunub. Bu məşğələ ilə iştirakçılar öz zəif cəhətlərini aşkar edərək onları aradan qaldırmaq üçün istiqamətlər alıblar. Bu da öz növbəsində iştirakçılara nəzəri bilikləri təcrübədə sınaqdan keçirmək imkanı verib.

Vergilər Nazirliyinin əməkdaşları əldə etdikləri biliklərin dayanıqlı olması üçün metodiki vəsaitlər əldə ediblər.

Təlimin ikinci günü iş vaxtının səmərəli idarə olunmasına həsr olunub. Bildirilib ki, müasir dövrdə kütləvi məlumat axını və həllini gözləyən tapşırıqların çoxluğu şəraitində əməkdaşlar iş vaxtını bir çox hallarda düzgün bölmür və yekunda vaxtın yetərsiz olmasından şikayətlənirlər. Əslində, zamanın yetərli olmaması onun düzgün idarə olunmamasının nəticəsidir. Treninq ərzində işdə prioritetlərin müəyyən olunması, işlərin təxirə salınmadan yerinə yetirilməsi, icrası həvalə olunmuş tapşırıqların vaxtında və keyfiyyətli icra edilməsi üsulları müzakirə mövzusu olub.

İştirakçılar təlimin səmərəli keçdiyini və qazandıqları biliklərin gələcək fəaliyyətlərində tətbiqinə çalışacaqlarını bildiriblər. Qeyd olunub ki, belə tədbirlərin keçirilməsi işçilərdə fərdi və peşəkar bacarıqların yüksəlməsinə, dövrün tələblərinə cavab verən peşəkar mütəxəssis kimi formalaşmağa və iş zamanı səmərəliliyin artmasına xidmət edir.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Mobil ödənişlərin effektiv inkişaf üsulları öyrənilir

Azərbaycanda «Elektron hökumət»in stabil inkişafı müşahidə olunur və hazırda «Mobil hökumət»in yaradılması istiqamətində iş aparılır. Azərbaycan MDB məkanında «3G» və «4G» şəbəkələri yaradan, «Mobil imza» tətbiq edən ilk ölkələrdən biridir. Bütün bunlar respublikada mobil ödənişlərin inkişafı üçün zəmin yaradır və bu məsələni daha da aktuallaşdırır.

Rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə oktyabrın 14-dən 16-dək Bakıda keçirilən «Mobil ödənişlər: inkişaf problemləri və perspektivləri» mövzusuna həsr olunmuş beynəlxalq seminarda bildirib ki, seminar mobil ödənişlərin ən effektiv inkişaf üsullarını müəyyənləşdirməyə kömək edəcək.

«İnterveyl» şirkətinin baş direktoru Oksana Smirnova «Rabitə sisteminin pilot fraqmentinin yaradılması və tövsiyələrin hazırlanması, mühafizə edilmiş distant pərakəndə ödənişlərinin dəstəklənməsi üçün İKT və simsiz rabitə şəbəkələri əsasında bank hesablarının idarə edilməsi» layihəsi üzrə görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, layihə çərçivəsində mobil ödənişlərin nəqliyyatda və digər sahələrdə tətbiqi ilə yanaşı, Beynəlxalq Rabitə İttifaqı (İTU) tərəfindən bu ödənişlərin təhlükəsizliyinin təmin edilməsi üzrə standartlar hazırlanıb.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və İTU-nun təşkilatçılığı ilə reallaşan tədbir çərçivəsində İTU və Beynəlxalq Hesablaşmalar Bankı tərəfindən mobil qurğular əsasında servislərin tətbiqi sahəsində görülən işlər, MDB ölkələrində mobil ödənişlərin inkişafı təcrübəsi, mobil ödəniş sistemləri ilə bağlı texnoloji məsələlər və təhlükəsizliyin təmin edilməsi ilə bağlı məruzələr dinlənilib, «MDB regionunda mobil bankinq sistemlərinin inkişafına kompleks baxış» mövzusunda «dəyirmi masa» təşkil olunub.

# Azərbaycanın təcrübəsi təqdir olunur

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, nazir müavini İdris İsayev Beynəlxalq Əmək Təşkilatının (BƏT) ölkəmizdə səfərdə olan Moskva ofisinin sosial müdafiə üzrə mütəxəssisi xanım Mariko Ouçi ilə görüşüb.*

Görüş zamanı ölkəmizdə tətbiqinə başlanan əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi, onun əhəmiyyəti barədə də məlumat verilərək qeyd olunub ki, əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasını təmin edən bu sistem eyni zamanda əmək bazarına dair geniş informasiya bazasını formalaşdırır. Əmək məsələləri, habelə əməkhaqqı sisteminin təkmilləşdirilməsi ilə bağlı müvafiq təhlillərin aparılmasında bu məlumat bazası xüsusi önəm daşıyır.

Xanım M. Ouçi Azərbaycanda əmək qanunvericiliyinin mütərəqqi normalar əsasında və BƏT ilə əməkdaşlıq şəraitində təkmilləşdirilməsi yönündə aparılan işləri, eyni zamanda əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin tətbiqini yüksək qiymətləndirib. O, Azərbaycanda məşğulluq imkanlarının genişlənməsi şəraitində əməkhaqlarının artırılması sahəsində əldə olunan uğurların təqdirəlayiq olduğunu və qarşıdakı dövrdə bu sahədə yeni irəliləyişlərə nail olunacağına əminliyini bildirib.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergitutmada nisbi bərabərlik prinsipi

Vergi sistemində bərabərlilik prinsipi onu xarakterizə edən çox mühüm meyarlardan biri olmaqla demokratik dövlət quruculuğu şəraitində iqtisadi sistemin ədalətliliyini göstərən əsas amillərdəndir. Bərabərlik prinsipi əsas etibarilə ayrı-ayrı vergilərin hesablanması və ödənilməsi mexanizmlərinin ədalətliliyində öz əksini tapır. Beynəlxalq aləmdə vergi sisteminin ədalətliliyi ictimaiyyətin diqqət mərkəzində olan əsas məsələlərdəndir.

İqtisadi baxımdan vergi sistemində ədalət prinsipi, o cümlədən vergi öhdəlikləri ilə bağlı nisbi bərabərlik onu müəyyən edir ki, dövlət gəlirləri və xərcləri əhalinin bir qisminə vergi yükü, digər qisminə isə imtiyazlar verilməklə gəlirlərin bölüşdürülməsinə təsir etməlidir. Beynəlxalq təcrübədə vergi sisteminin ədalətli olması prinsipinin iki müxtəlif əlamətinin olduğu müəyyən edilir: üfüqi və şaquli.

Üfüqi ədalətlilik prinsipinə görə, eyni iqtisadi vəziyyətdə olan vergi ödəyiciləri həm də vergi öhdəlikləri baxımından eyni mövqedə olmalıdır. Başqa sözlə, hər bir vergi ödəyicisi eyni səviyyədə olan vergi öhdəliyi daşımalıdır. Bu prinsipin əsasında duran ideya ondan ibarətdir ki, hər bir şəxsdən vergi onun əldə etdiyi gəlirlərin məbləğindən asılı olaraq tutulmalıdır. Vergi bütün vətəndaşlar arasında bərabər məbləğlərdə bölüşdürülməli və hər hansı şəxsin digərlərinin xeyrinə ödədiyi vergilər onun əldə etdiyi gəlirlərə uyğun olmalıdır. Lakin bu halda belə bir etik məsələ meydana çıxır ki, vergi ödəyən şəxslər arasında bərabərlik təkcə onların cari gəlirlərinin müqayisə olunması yolu ilə təmin edilə bilməz. Buna misal olaraq müəssisədə eyni işi yerinə yetirən və bunun müqabilində eyni məbləğdə əməkhaqqı alan iki şəxsi götürək. Tutaq ki, bunlardan birinin himayəsində bir, digərinin himayəsində isə beş uşaq var. Təbii məsələdir ki, eyni gəlir əldə edilməsi üçün, eyni vəziyyətdə olmalarına baxmayaraq, bu iki şəxsin iqtisadi vəziyyəti bərabər ola bilməz.

Vergi sisteminin ədalətli olmasının şaquli prinsipinə əsasən, qeyri-bərabər vəziyyətdə olan şəxslər vergi öhdəliyi baxımından da qeyri-bərabər vəziyyətdə olmalıdırlar. Başqa sözlə desək, dövlətdən bu və ya digər formada fayda alan şəxs buna görə daha çox məbləğdə vergini dövlət xəzinəsinə ödəməlidir. Bu halda, ilk baxışdan, ədalət prinsipinin gözlənilməsi onunla bağlı olur ki, daha çox vəsait ödəyən şəxs bunun əvəzində dövlətdən daha çox fayda götürmüş olur. Ümumiyyətlə, əhalinin yaşlı təbəqəsi əmək qabiliyyətli gənclərlə müqayisədə az gəlir əldə edir. Digər tərəfdənsə, yaşlı əhali dövlətin göstərdiyi xidmətlərə, xüsusən də tibb xidmətlərinə daha çox müraciət edir. Bununla yanaşı, vergini ödəmə qabiliyyəti prinsipi təsbit edir ki, az gəlir əldə edən şəxslər, o cümlədən yaşlı insanlar nisbətən az vergi ödəməlidirlər. Əslində, faydalılıq prinsipinə əsasən, yaşlı insanlar dövlət tərəfindən maliyyələşən xəstəxana və klinikaların xidmətlərindən daha çox istifadə etdiklərinə görə daha çox vergi ödəməlidirlər. Aydın məsələdir ki, əgər vergi sistemində faydalılıq prinsipi tətbiq edilmiş olsaydı, bu, təqaüdçülərə və əhalinin digər yaşlı təbəqələrinə qarşı ədalətsizlik olardı.

*Vergi ödəyicisinin hər hansı pozuntuya yol verməsi bilərəkdən olmadığı halda belə, ona qarşı maliyyə sanksiyalarının tətbiqi, habelə tətbiq olunan cərimələrin, maliyyə sanksiyalarının məbləğlərinin büdcədən yayındırılmış vergi ödəmələri ilə müqayisədə çox olması ədalətin pozulması barədə subyektiv fikirlərin yaranmasına səbəb olur*

Bəzən vergi sistemində ədalət prinsiplərinin yetərincə gözlənilməməsi və ya nisbi bərabərliyin pozulması vergi ödəyicilərinə qarşı tətbiq olunan məsuliyyət tədbirlərinə dair vergi qanunvericiliyinin müddəalarından da irəli gələ bilər. Qanunvericiliyə əsasən, vergi öhdəliklərinin yerinə yetirilməməsinə görə vergi ödəyicisinə qarşı inzibati, cinayət məsuliyyəti tədbirlərinin görülməsi və maliyyə sanksiyalarının tətbiq edilməsi nəzərdə tutulmuşdur. Vergi ödəyicisinin hər hansı pozuntuya yol verməsi bilərəkdən olmadığı halda belə, ona qarşı maliyyə sanksiyalarının tətbiqi, habelə tətbiq olunan cərimələrin, maliyyə sanksiyalarının məbləğlərinin büdcədən yayındırılmış vergi ödəmələri ilə müqayisədə çox olması ədalətin pozulması barədə subyektiv fikirlərin yaranmasına səbəb olur. Bəzən vergi qanunvericiliyinin tətbiqi barədə izahların verilməsinin vergi orqanlarının səlahiyyətlərinə aid olunmasını vergi orqanlarının vergi ödəyiciləri ilə müqayisədə üstün vəziyyətdə olması kimi qiymətləndirirlər.

Vergi öhdəliklərinin yerinə yetirilməsində nisbi bərabərliyin təmin olunması hallarına daha bir nümunə də vergitutmanın proqressiv və proporsional şəkildə tətbiqi mexanizmlərindən irəli gəlir. Vergitutmanın klassik modelinə görə, vergi sistemi proqressivlik təşkil edir və bunun nəticəsində vergilərin ödənməsindən sonra vergi ödəyicilərinin iqtisadi vəziyyətindəki fərq azaldılmış olur. Faktiki olaraq bu nisbi bərabərlik mürəkkəb proqressiya vasitəsilə əldə olunur, çünki vergi dərəcəsinin artımı vergitutma obyektinin artmasına uyğun olaraq baş verir. Lakin verginin daha yüksək dərəcəsi yalnız vergitutma obyektinin müəyyən olunmuş həddən artıq hissəsinə tətbiq edilir. Digər tərəfdən, proporsional vergi dərəcələrinin tətbiq olunması zamanı daha yüksək gəlirlər əldə edən vergi ödəyiciləri digər ödəyicilərlə müqayisədə daha çox vergi ödəyirlər.

Vergitutmada nisbi bərabərliyin təmin olunması Azərbaycanın da vergi qanunvericiliyində əhəmiyyətli yer tutur. Qabaqcıl vergi sistemlərində olduğu kimi, vergitutmada bərabərlik prinsipinin daha da gücləndirilməsi Azərbaycanda aparılan vergi islahatlarının əsas məqsədlərindən biridir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

### Gəlir vergisinin ödənilmə müddəti

***Gəlir vergisinin ödəyicisi kimi mart ayının 31-dək gəlir vergisini dövlət büdcəsinə ödəməliyəm. Həmin vergini qeyd olunan müddətdən gec ödəmək hüququm varmı?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 77.1-ci maddəsinə əsasən, vergi ödəyicisinin Vergi Məcəlləsində göstərilən hallarda və qaydada müəyyən edilən vergini (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsi onun vergi öhdəliyi hesab olunur. Həmin Məcəllənin 85.1-ci maddəsinə əsasən, hər bir vergiyə dair ödənilmə müddətləri müəyyən edilir. Vergilərin müəyyən edilmiş ödənilmə müddətinin dəyişdirilməsi yalnız Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilə bilər. 85.2-ci maddəyə əsasən, vergilərin ödənilmə müddətləri pozulmaqla ödənilməsinə görə vergi ödəyicisi qanunla müəyyən edilmiş qaydada və şərtlərlə faiz ödəyir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergi öhdəliklərinin yerinə yetirilməsi müddətlərinin daha gec müddətə dəyişdirilməsi ilə əlaqədar iki hal müəyyən edir. Məcəllənin 85.6-cı maddəsinə əsasən, təbii fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə və vergini birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri daha gec müddətə dəyişdirilə bilər. Lakin bu zaman 1-ci halda vergi ödəyicisi hadisənin baş verməsi və onun nəticəsində dəymiş zərərin məbləği barədə müvafiq dövlət orqanlarının arayışlarını, 2-ci halda isə vergi ödəyicisi müraciət edilmə tarixinə vergi ödəyicisinin kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların adı, VÖEN göstərilməklə debitor və kreditor borcları barədə arayışları vergi orqanına təqdim etməlidir.

Onu da qeyd edək ki, vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır. Vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciətini vergi orqanına göndərir. Müraciət vergi növü (növləri) üzrə onların müvafiq hesabat dövrü üçün qanunvericiliklə müəyyən edilmiş ödəmə müddətinədək təqdim olunmalıdır. Yuxarıda qeyd olunan əsaslar olduqda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi ili ərzində 1 aydan 9 ayadək uzadıla bilər. Həmin müddət ərzində vergi ödəyicisinə faizlər hesablanmır. Girov müqaviləsinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada etibarsız hesab edilməsi vergi ödəyicisinin vergi öhdəliyini ləğv etmir. Girov müqaviləsinin qeydiyyatı ilə bağlı xərclər vergi ödəyicisi tərəfindən ödənilir.

Sonda onu da bildiririk ki, vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

- vergi ödəyicisi vergi öhdəliyini vaxtından əvvəl yerinə yetirdikdə;
- vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırıldıqda;
- vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərarının şərtlərinə əməl edilmədikdə.

# Əmək qanunvericiliyini pozanlar cəzalandırılır

*İlin ilk doqquz ayı ərzində qeyri-leqal şəkildə əmək fəaliyyətinə cəlb olunduğu aşkar edilmiş 6420 nəfər işçi ilə işəgötürən arasında əmək müqaviləsinin bağlanılması təmin olunub.*

Əmək qanunvericiliyinin pozulmasını minumuma endirmək və qarşısını almaq məqsədilə Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən nəzarət tədbirləri həyata keçirilir. DƏMX-nin rəisi Fuad Əlizadənin sözlərinə görə, cari ilin 9 ayı ərzində dövlət nəzarəti zamanı ayrı-ayrı idarə, müəssisə və təşkilatlarda 14774 halda əmək qanunvericiliyinin tələblərinin pozulması faktı aşkar olunub: «Əsasən özəl sektora aid müəssisələrdə, topdansatış, ticarət və ictimai iaşə, tikinti sektorlarında yol verilən bu hüquq pozuntuları ilə bağlı işəgötürənlər İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə cərimələniblər. Tətbiq olunmuş ümumi cərimələr 3437650 təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 7,3 dəfə çoxdur. Cərimələrdən 41,1%-i, yəni 1411600 manatı dövlət büdcəsinə ödənilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 23,6 dəfə çoxdur».

Xidmət rəisi dövlət nəzarəti, eləcə də vətəndaşların müraciətlərinin araşdırılması zamanı doqquz ay ərzində işəgötürənlər tərəfindən 418207 manat məbləğində gecikdirilmiş sosial xarakterli ödəmələrin işçilərə ödənildiyini bildirib: «Həmin vəsaitin 388125 manatı əməkhaqları, 19767 manatı zərərə görə ödənclər, 10315 manatı isə sosial müavinət və kompensasiyalardır. Bu sahədə aparılan işlərin müsbət nəticəsi kimi iş yerlərində əməkhaqlarının və digər sosial xarakterli ödənişlərin gecikdirilməsi hallarının azalması özünü göstərir. Bu ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə gecikdirilmiş əməkhaqlarının məbləği 19,1%, gecikdirilmiş zərərə görə ödənclərin məbləği 15,3%, gecikdirilmiş sosial müavinət və kompensasiyaların məbləği isə 34% az olub».

F.Əlizadənin sözlərinə görə, əməyin mühafizəsi tələblərinin ciddi şəkildə pozulduğu bir sıra müəssisələrdə, o cümlədən tikinti obyektlərində aparılan işlər əməyin mühafizəsi sahəsində aşkar olunan nöqsanlar aradan qaldırılana qədər dayandırılıb: «Bu tədbirlər davam etdiriləcək və işçilərinin həyat və sağlamlığı üçün təhlükəli iş şəraiti olan müəssisələrə qarşı sərt tədbirlər həyata keçiriləcək».

Əmək münasibətlərinin elektron qeydiyyatı mexanizmi barədə məlumat verən xidmət rəisi bildirib ki, dövlət nəzarəti zamanı qeyri-leqal işçiləri dərhal müəyyən etməyə imkan verən bu sistem nəticə etibarilə sosial sığorta və vergi daxilolmalarının artmasına şərait yaradır: «Elektron informasiya sisteminin tətbiqi işəgötürənlərin qısa dövrdə elektron imza ilə işləmək bacarıqlarına yiyələnmələrinə, bağlanan hər bir əmək müqaviləsinin artıq kağız daşıyıcı formasından çıxaraq elektron sənəd kimi formalaşmasına və istənilən halda işçilərin hüquqlarının müdafiəsində hüquqi əsas rolu oynaya bilməsinə şərait yaradıb».

**AYTƏN**

# 2015-ci ildə qeyri-neft sektorunda vergi daxilolmalarının həcmi artacaq

Maliyyə Nazirliyinin təqdim etdiyi 2015-ci ilin dövlət büdcəsi layihəsində respublikamızın növbəti ilə dair makroiqtisadi göstəriciləri sırasında vergi-fiskal siyasətin istiqamətləri də əks olunub. Ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozuna uyğun olaraq, gələn il büdcə-vergi siyasəti üzrə bir sıra mühüm tədbirlərin görülməsi nəzərdə tutulur. Vergi siyasətinin koordinasiyasını gücləndirmək, qeyri-neft gəlirlərinin qeyri-neft ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisini artırmaq əsas istiqamətlərdəndir. Bu məqsədlə fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların bazasını genişləndirmək, vergi daxilolmalarının yığım əmsalını artırmaq, respublikanın şəhər və rayonları üzrə gəlir və xərcləri tarazlaşdırmaq prioritetlər sırasındadır.

2015-ci ildə vergi siyasəti ölkənin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla, iqtisadiyyatın prioritet sahələrinin inkişafına və onun effektivliyinin, uzunmüddətli dayanıqlığının təmin edilməsi üçün şərait yaradılmasına, investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəldiləcəkdir. Ölkə iqtisadiyyatının mühüm maliyyə təminatı rolunu oynayan dövlət büdcəsində risklərin qarşısının alınması, aparılan iqtisadi islahatların nəticəsi olaraq qeyri-neft sektorundan daxilolmaların həcminin artırılması istiqamətində tədbirlərin görülməsi növbəti ildə iqtisadi siyasətin başlıca hədəfi kimi müəyyən edilib. Qeyri-neft-qaz sektorundan əldə olunacaq əlavə vəsaitlərin əsas mənbəyi isə vergi və gömrük daxilolmaları, büdcədənkənar gəlirlər hesab edilir.

Maliyyə Nazirliyinin idarə rəisi Aydın Hüseynov deyib ki, gələn ilin büdcə zərfində neftin qiyməti 2014-cü ilin büdcə proqnozuna nisbətən 10% aşağı götürülməsinə baxmayaraq, qarşıdakı ildə qeyri-neft gəlirlərinin artması və digər mənbələr hesabına aradakı fərqin kompensasiya ediləcəyi və ümumi daxilolmaların tarazlaşdırılması nəzərdə tutulur.

## *Gələn il Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 112 milyon manat daxilolma proqnozlaşdırılır*

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinovun sözlərinə görə, 2015-ci ilin büdcə-vergi siyasəti ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, iqtisadiyyatın dayanıqlılığının təmin edilməsinə, qeyri-neft sektorunun inkişafına, iqtisadiyyatın aparıcı sahələrinin modernləşməsinə və şaxələnməsinə, əhalinin yaşayış səviyyəsinin artırılmasına yönəldilib: «Büdcə-vergi siyasəti qeyri-neft gəlirlərinin qeyri-neft ÜDM-də və büdcə gəlirlərində xüsusi çəkisinin artırılmasına, respublikanın şəhər və rayonları üzrə yerli gəlir və xərclərin tarazlaşdırılmasına, vergi daxilolmalarının yığım əmsalının yüksəldilməsinə istiqamətlənib. Dövlət xərclərinin maliyyələşdirilməsi istiqamətində sosial siyasətin davam etdirilməsi, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, dövlət əsaslı vəsait qoyuluşu xərclərinin strukturunun təkmilləşdirilməsi büdcə-vergi siyasətinin əsasını təşkil edəcək».

Qeyd olunub ki, dövlət büdcəsi gəlirlərində qeyri-neft sektoru üzrə daxilolamalar cari ilin proqnozu ilə müqayisədə 8,1%, 2013-cü ilin faktiki icra göstəriciləri ilə müqayisədə isə 28,7% artacaqdır. 2015-ci ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 112 milyon manat daxilolma proqnozlaşdırılır ki, bunun 4 milyard 812 milyon manatı (67,7%) qeyri-neft sektorunun, 2 milyard 300 milyon manatı (32,3%) neft sektorunun payına düşür. Nazirlik tərəfindən qeyri-neft sektoru üzrə isə artım 2013-cü illə nisbətdə 8050,1 milyon manat (27,9%), cari illə müqayisədə 512 milyon manat (11,9%) çox nəzərdə tutulur. Beləliklə, Vergilər Nazirliyinin büdcə daxilolmalarında payı 2013-cü ilin faktiki icra göstəriciləri ilə müqayisədə 448 milyon manat (6,7%), cari ilin proqnoz göstəricisi ilə müqayisədə isə 10 milyon manat (0,1%) çox olacaq.

Qeyri-neft sektoru üzrə vergi daxilolmaları *(mln. manat)*




Qarşıdakı ildə vergitutma və sosial yığımların bazasının artırılmasına hesablanmış tədbirlər diqqət mərkəzində olacaq. Müəssisələrdə iş yerlərinin rəsmiləşdirilməsi ilə bağlı tədbirlərin gücləndirilməsi, əmək müqaviləsi bildirişlərinin elektron informasiya sistemində qeydiyyatının aparılması, qeyri-leqal məşğulluqla mübarizənin həyata keçirilməsi yolu ilə ümumi daxilolmaların həcmini artırmaq mümkün olacaq. Bunun nəticəsində növbəti ildə ölkə üzrə orta aylıq əməkhaqqının 4,8 % artımı, müxtəlif sahələrdə yeni iş yerlərinin açılması, həmçinin uçotdankənar iş yerlərinin leqallaşdrılması hesabına fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların həcminin 100 milyon manat (11,3%) artaraq 982 milyon manata çatdırılması proqnozlaşdırılır.

Bakı şəhərində və regionlarda yeni istehsal, xidmət və sənaye müəssisələrinin fəaliyyətə başlaması və neftdənkənar sahələrdə istehsalın artması hesabına qeyri-neft sektorunu təmsil edən hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmalarının həcminin də 2014-cü ilin proqnozuna nisbətən 111 milyon manat (11,7%) artaraq 1 milyard 61 milyon manata çatdırılması nəzərdə tutulur. Sadələşdirilmiş vergi və digər vergi növləri üzrə daxilolmaların da həcminin əhəmiyyətli dərəcədə artımı gözlənilir.

2015-ci ildə dövlət büdcəsinin gəlirlərinin yığım əmsalının artırılması, mülkiyyət və yol vergiləri dərəcələrinin optimallaşdırılması, müxtəlif vergi növləri üzrə vergi bazasının genişləndirilməsi və vergidən yayınmaların qarşısının alınması istiqamətində məqsədyönlü tədbirlər həyata keçiriləcək.

Qeyri-neft daxilolmalarının həcminin artırılmasında başlıca istiqamətlərdən biri kimi vergidən yayınmaların qarşısının alınması məqsədilə nağd hesablaşmaların məhdudlaşdırılması və transfert qiymətlərinin tətbiqinə nəzarətin gücləndirilməsi, ƏDV-nin vergitutma bazasının genişləndirilməsi ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur. Partnyorluq sazişlərinin bağlanması könüllü əməletmə səviyyəsinin artmasında mühüm vasitə olmaqla vergilərin artım tempinə də öz müsbət təsirini göstərəcək.

Vergi siyasətinin digər istiqamətləri sahibkarlığın müasir sahələrinin, o cümlədən innovativ sahibkarlığın inkişaf etdirilməsinə, investisiya qoyuluşlarının genişləndirilməsinə, aktiv vergi siyasətinin həyata keçirilməsinə, inzibatçılığın müasir İKT sferasında təkmilləşdirilməsinə, vergi dərəcələrinin optimallaşdırılmasına, beynəlxalq vergi qanunvericiliyinə inteqrasiyanın daha da sürətləndirilməsinə yönəldiləcəkdir.

**Elbrus CƏFƏRLİ**

# Azərbaycanda İslam bankçılığının perspektivləri

Bu gün bir sıra Avropa ölkələrinin iri banklarında «İslam pəncərəsi» xidməti mövcuddur. Bu xidmət vasitəsilə banklar məhsullarını müştərilərə İslam qaydalarına uyğun olaraq təqdim edir. «İslam bankçılığı» adlanan bu sistem, əsasən, İran körfəzi ölkələrində, eləcə də Türkiyə, ABŞ, Böyük Britaniya, Rusiya, Misir və Malayziyada tətbiq edilir.

İslam bankçılığı yeni anlayış olduğundan onun əsas xüsusiyyətləri, təqdim etdiyi məhsullar barədə məlumatımız yetərincə deyil. Bu bankçılığın səciyyəvi xüsusiyyətləri ilə bağlı Azərbaycan Beynəlxalq Bankının (ABB) «İslam pəncərəsi» Departamentinin rəhbəri Bəhnam Qurbanzadəyə müraciət etdik. Onun sözlərinə görə, «İslam pəncərəsi» İslam maliyyə sisteminin tərkib hissəsidir. İslam bankçılığı dedikdə, bank fəaliyyətinin bütün mərhələlərinin şəriətin iqtisadi tələbləri əsasında qurulması nəzərdə tutulur: «Bu bankçılıqda maliyyə əməliyyatlarında faizlərin hesablanması, şəriətlə qadağan olunmuş iqtisadi fəaliyyətlərin - yəni spirtli içkilərin, donuz ətindən məhsulların istehsalının və s. maliyyələşdirilməsi qadağandır. Spekulyativ maliyyə əməliyyatlarının, bütün növ müqavilə şərtlərində qeyri-müəyyənlik doğuran müddəaların qadağan olunması, eləcə də bir çox maliyyə əməliyyatlarında mənfəət və zərərin bölüşdürülməsi, bankçılığın, əsasən, investisiya yönümlü olması, şəffaflığın və müqavilə şərtlərinə əməl edilməsinə ciddi riayət olunması, uzunmüddətli və real aktivlər üzərində qurulmuş layihələrin maliyyələşdirilməsi bu bankçılığın əsas xüsusiyyətləri; investisiya, maliyyə xidmətləri, ticarət və ictimai layihələrə dəstək isə əsas istiqamətləridir».

## *İİB Azərbaycan hökuməti ilə birgə respublikada bu günə qədər 61 layihə həyata keçirmişdir*

***«İslam lizinqi»***

Ölkəmizdə İslam bankçılığının fəaliyyəti barədə danışan B.Qurbanzadənin sözlərinə görə, bunun əsası 1992-ci ildə Azərbaycanın İslam İnkişaf Bankının (İİB) üzvlüyünə qəbulundan sonra qoyulmuşdur. İİB Azərbaycan Hökuməti ilə birgə respublikada bu günə qədər 61 layihə həyata keçirmişdir. Kommersiya bankları səviyyəsində ABB 2009-cu ildən bu sahədə geniş tədqiqatlara başlamışdır və 2012-cü ildə özünün təşkilati strukturunda «İslam pəncərəsi» Departamentini yaratmışdır: «Departament tərəfindən vətəndaşlara mövcud bank qanunvericiliyi çərçivəsində daşınan və daşınmaz əmlakların lizinqi, əmanətlərin yerləşdirilməsi, plastik kart satışı, köçürmə və kassa əməliyyatları xidmətləri göstərilir».

Oxucularımızın marağına səbəb ola biləcək «İslam lizinqi» barədə danışan departament rəhbərinin sözlərinə görə, bu lizinq ilə adi lizinq arasında iqtisadi mahiyyətinə görə heç bir fərq yoxdur. Sadəcə, İslam lizinq şirkətləri şəriət tərəfindən haram buyurulmuş məhsul istehsalı üzrə avadanlıqlarını və ya hər hansı digər istehsal qurğularının alınmasını maliyyələşdirmir».

***Plastik kart vasitəsilə maliyyələşdirmə***

B.Qurbanzadənin sözlərinə görə, şəriətə zidd olmadığı üçün İslam bankçılığında müştəriyə birbaşa nağd vəsaitlərin borc şəklində verilməsi tətbin olunur. Lakin bu əməliyyatlar xüsusi təlimatlarla tənzimlənir və bir çox hallarda müştəri İslam bankları tərəfindən əmtəənin satın alınması əsasında təşkil olunmuş sövdə vasitəsilə maliyyələşdirilir: «Azərbaycan Respublikasının «Banklar və bank fəaliyyəti haqqında» Qanunu banklara əmtəə ticarətini (qiymətli kağızlar, qiymətli metallar və daş-qaşlar istisna olmaqla) qadağan edir. Bu səbəbdən, departament müştərilərini yalnız plastik kart vasitəsi maliyyələşdirir. Plastik karta açılan borc maliyyə xəttinə faiz hesablanmır. Lakin həmin kartdan istifadəyə görə müştəri banka xidmət haqqı ödəməlidir».

İslam bankçılığında vətəndaşların ən çox müraciət etdiyi xidmətlərə gəlincə, bunlar ipoteka, eləcə də kiçik və orta biznesin maliyyələşdirilməsindən ibarətdir.

***İslam bankçılığının gələcəyi***

Departament rəhbərinin bildirdiyinə görə, hazırda «İslam pəncərəsi» Departamentinin fəaliyyətinin əsas istiqaməti ölkə bank qanunvericiliyinə əlavə və dəyişikliklər layihəsinin işlənməsinə yönəldilib: «Bu, böyük layihədir və onun hazırlanması üçün İslam İnkişaf Bankı Azərbaycan hökumətinə texniki dəstəyin ayrılmasına dair öz müsbət rəyini bildirmişdir. ABB bu layihədə əsas icraçı orqan kimi təmsil olunacaq. Layihə sona çatdıqda ABB Mərkəzi Bankın dəstəyi ilə həmin əlavə və dəyişikliklər layihəsini Nazirlər Kabinetinin və parlamentin müzakirəsinə təqdim edəcək. Həmin əlavə və dəyişikliklər gələcəkdə qanun statusu alarsa, ölkəmizdə İslam bankları geniş bank xidməti spektrində fəaliyyətə başlaya biləcək».

***Statistikadan görünənlər***

2014-cü ilin yanvar ayının 1-dən sentyabrın 1-dək ABB-nin «İslam pəncərəsi» Departamentinin maliyyə dövriyyəsi 10 milyon manatdan artıq olmuşdur. Son iki il ərzində departament tərəfindən Azərbaycana 218 milyon ABŞ dolları məbləğində maliyyə vəsaitləri cəlb edilmişdir.

**AYTƏN**

# Rusiya Azərbaycanda aqrar-sənaye sahəsinə böyük maraq göstərir

Bir müddət əvvəl Azərbaycan və Rusiya arasında investisiyaların qarşılıqlı qorunması və təşviqi haqqında sazişin imzalanması hər iki tərəf üçün əməkdaşlığa yeni imkanlar açıb.

Rusiya hökuməti Azərbaycanda yeni tipli aqrar layihələrin həyata keçirilməsində və müasir aqrar-sənaye, emal komplekslərinin təşkilində iştirak etmək üçün birgə müəssisənin yaradılmasında maraqlı olduğunu açıqlayıb. RF Baş nazirinin müavini Dmitri Roqozin bildirib ki, Azərbaycanda aqrar-sənayenin inkişafına dair dövlət proqramında nəzərdə tutulan layihələr onlar üçün maraq kəsb edir və həmin layihələrdə iştirakla bağlı təkliflər paketi hazırlanaraq təqdim olunacaq. Birgə layihələrdə Rusiyanın dövlət və özəl şirkətlərinin nümayəndələrinin təmsil olunması nəzərdə tutulur.

Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov bildirib ki, Rusiyanın ölkəmizin aqrar sektorunda sərmayə qoyuluşu layihələri rəqabətqabiliyyətli məhsul istehsalına yönəldiləcək. Dövlət başçısının təsdiqlədiyi «Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası» çərçivəsində kənd təsərrüfatı məhsullarının tədarükü və emalı ilə bağlı özəl tədarük-satış bazalarının, ticarət şirkətlərinin və avtorefrijerator parkının yaradılması, Bakının rayonlarında və iri şəhərlərdə daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış fermer mağazaları və «yaşıl marketlər» şəbəkəsinin sayının artırılması, kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması və daxili bazarın qorunmasının gücləndirilməsi nəzərdə tutulur. Rusiya ilə əməkdaşlıq çərçivəsində məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi ilə bağlı layihələr maliyyələşdiriləcək. Bu layihələrin həyata keçirilməsi qeyri-neft sənayesinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir, xüsusilə də aqroparkların yaradılması müasir texnologiyaların tətbiqi nəticəsində istehsal güclərinin artırılması və yeni müəssisələrin istifadəyə verilməsinin əsas istiqamətlərindəndir.

Rusiya birgə əməkdaşlıq çərçivəsində Azərbaycanda fermer satış marketlərinin yaradılmasına kömək edəcək. Artıq hökumətin öz maliyyəsi hesabına Bakı şəhərində fermer mağazalarının və «yaşıl marketlər»in yaradılmasına başlanılıb. Sahibkarlığa Kömək Milli Fondu paytaxtda ilk ixtisaslaşmış «yaşıl marketin» tikintisi üçün təxminən 1 milyon manat vəsait ayrılmasına qərar verib. Layihə çərçivəsində Bakıda iki maddi-texniki təchizat mərkəzi və bir ixtisaslaşmış «yaşıl market»in tikintisi maliyyələşdiriləcək. «Yaşıl market» üçün lazımi avadanlıq və vitrinlərlə təmin olunmuş satış yerləri, soyuducu anbar, fermer mağazaları, kənd təsərrüfatı məhsullarının və ərzağın müvafiq sanitar-gigiyenik normalara cavab verməsini daim nəzarətdə saxlamaq üçün müasir laboratoriya, avtopark və s. yaradılacaq.

Yaxın zamanlarda Azərbaycan-Rusiya hökumətlərarası birgə forumu keçiriləcək və iqtisadi sahə ilə bağlı memorandum imzalanacaq. Kənd Təsərrüfatı Nazirliyinin (KTN) şöbə müdiri Rizvan Mustafayevin sözlərinə görə, yeni model çərçivəsində nazirlik aqrar sektorda müasir istehsal-emal-bazar strukturuna malik modellərin reallaşması üçün strateji plan hazırlayaraq hökumətə təqdim edib.

*Rusiyanın ölkəmizin aqrar sektorunda sərmayə qoyuluşu layihələri rəqabətqabiliyyətli məhsul istehsalına yönəldiləcək*

Azərbaycanın aqrar-sənaye kompleksinin inkişafı strategiyasında iri emal təsərrüfatları şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur. Bu sektorda istehsalın intensiv inkişafının gücləndirilməsi məqsədilə fermer birlikləri təşkil olunacaq. KTN hesab edir ki, bu cür layihələrin həyata keçirilməsində başlıca məqsəd Azərbaycanda aqrar sektorda fəaliyyət göstərən və xüsusilə də aqrar biznesdə yüksək keyfiyyətli yeyinti məhsullarının rəqabətinin artırılmasına, ərzaq məhsullarının təhlükəsizlik standartlarına cavab verməsinə şərait yaratmaqdır. Digər tərəfdən, yeni aqrar modellər regionlarda ən müasir texnologiyalar əsasında anbar komplekslərinin yaradılması, kənd təsərrüfatının intensiv inkişafı, mövsümi qiymətlərin tənzimlənməsi, məhsul itkisinin qarşısının alınması, daxili bazarın qorunması və ixrac potensialının artırılması baxımından əhəmiyyətli rol oynayacaq.

**E.CƏFƏRLİ**

**Vergi ödəyicilərinin nəzərinə!**

**Hörmətli vergi ödəyiciləri!**

**Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (www.e-gov.az, www.mlspp.gov.az) qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Bunun üçün işəgötürənlərin və ya onların nümayəndələrinin gücləndirilmiş elektron imzası, o cümlədən "ASAN İmza"sı olmalıdır.**

Vergi ödəyiciləri "ASAN İmza" sertifikatını əldə etmək üçün "ASAN İmza" sim kartını Azərbaycanın hər üç mobil operatorundan 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron sistemə daxil edilir.

Vergilər Nazirliyi bildirir ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Nəzərinizə çatdırırıq ki, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, ödənişsiz qaydada əmək müqavilələrinizi elektron sistemə daxil edə bilərsiniz.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Regionların inkişafının yeni mərhələsi

## *Bu ilin ilk doqquz ayında bölgələrdə 100 mindən çox yeni iş yeri açılıb*

*2014-2018-ci illəri əhatə edən «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası çərçivəsində bu il də ölkə iqtisadiyyatının şaxələnməsinə, qeyri-neft sektorunun inkişafına yönələn dövlət dəstəyi tədbirləri davam etdirilib. İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Regionların inkişafı və dövlət proqramları şöbəsinin əməkdaşı Zaur Nuriyevin bildirdiyinə görə, üçüncü proqramın icrası nəticəsində artıq ilin 9 ayında 100 mindən çox yeni iş yeri açılıb ki, onlardan 80 mini daimidir. Ümumilikdə, regionların inkişafı strategiyası qəbul edildiyi vaxtdan bəri 1 milyon 300 min iş yeri açılıb ki, onların təxminən 1 milyonu daimidir.*

İSN əməkdaşının sözlərinə görə, yeni Dövlət Proqramının icrası məqsədlərinə cari ilin dövlət büdcəsindən 1 milyard 292 milyon manat vəsait sərf edilib. Vəsaitlərin böyük hissəsi yerli investorların vəsaitlərindən və büdcədən ayrılmış xərclərdən ibarətdir. Bununla yanaşı, xarici sərmayəçilərin də regionlara investisiya qoyuluşlarının həcmi artıb. Həmin vəsaitlər yolların təmirinə, elektrik enerjisi, qaz, su təminatının yaxşılaşdırılmasına, infrastrukturun yenidən qurulmasına, istehsal, emal müəssisələrinin yaradılmasına, sənaye layihələrinin həyata keçirilməsinə və aqrar layihələrin davam etdirilməsinə yönəldilib.

Ötən 9 ayda bölgələrdə həyata keçirilən kredit yarmarkaları nəticəsində onlarla sahibkar maliyyə vəsaitləri ilə təmin olunub və onlar artıq öz layihələrinin icrasına start veriblər. Sahibkarlara güzəştli kreditlərin verilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondundan 150 milyon manata yaxın vəsait sərf olunub. Kreditlərin 70%-dən çoxu bölgələrdəki sahibkarlara verilib və bu vəsaitlər hesabına 20 minə yaxın yeni iş yeri yaradılıb. Regionlarda innovativ sahibkarlığın stimullaşdırılması, yeni sənaye layihələrinin həyata keçirilməsi, bölgələrdə sənaye məhəllələrinin, texnoparkların və biznes-inkubatorların yaradılması istiqamətində də mühüm işlər görülüb. Hazırda ölkəmizdə Sumqayıt Texnologiyalar Parkı fəaliyyət göstərir, Sumqayıt Kimya Sənayesi, Balaxanı Sənaye və Yüksək Texnologiyalar parklarının təşkili istiqamətində müvafiq işlər aparılır.

Regionların inkişafı ilə bağlı həyata keçirilən tədbirlər kənd təsərrüfatı və emal sənayesinin inkişafına da mühüm təsir göstərib. Aqrar sahədə çalışan sahibkarlara güzəştli şərtlərlə texnika və mineral gübrələrin verilməsi, satış bazarları şəbəkəsinin genişləndirilməsi, fermerlərin xarici bazarlara çıxışı üçün ixrac imkanlarının stimullaşdırılması ilə bağlı tədbirlər genişlənib. Kənd mülkiyyətçilərinə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına verilmiş kreditlərlə yanaşı, «Aqrarkredit» təşkilatı və özəl banklar vasitəsilə güzəştli maliyyə təminatı həyata keçirilib. Bundan başqa, regional inkişaf proqramı çərçivəsində «Aqrolizinq» Səhmdar Cəmiyyətinin xətti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına texnika alınmasına kömək göstərilib, bu məqsədlə 32 milyon manat vəsait xərclənib. Fermerlərə digər mənbələr hesabına taxılyığan kombaynların alınması, xaricdən damazlıq heyvanların idxalı və istehsalın müasir tələblərə uyğun yenidən qurulması məqsədilə 30 milyon manat vəsait ayrılıb. Yeri gəlmişkən, kənd əməkçilərinə, fermerlərə və sahibkarlara göstərilən qayğının təzahürü olaraq, kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə olunan mineral gübrələrin satışı zamanı tətbiq olunan və dövlət büdcəsindən maliyyələşən güzəşt 50%-dən 70%-dək artırılıb. Bu tədbirlər regionlarda kənd təsərrüfatı məhsullarının həcminin artmasına səbəb olub və aqrar sahədə 3,9% artım baş verib.

Üçüncü Dövlət Proqramının icrası bölgələrdə işsizliyin səviyyəsinin azalmasına mühüm təsir göstərib. Yeni müəssisələrdə yaradılmış iş yerlərinin sayının artması işsizlik səviyyəsinin 1%-ə yaxın aşağı düşməsinə səbəb olub. Hazırda ölkəmizdə işsizlik səviyyəsi 5% təşkil edir ki, bu da orta dünya göstəricisindən xeyli aşağıdır. Bəzi inkişaf etmiş ölkələrdə işsizlik 25-30%-dir, gənclər arasında isə 50%-ə çatır.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə bölgələrdə məşğulluğun artırılmasına xidmət edən yeni proqramın icrası məqsədilə müvafiq işlər görülüb. Yeni sənəd məşğulluq və əmək bazarı sahəsində siyasətin gücləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, vergi, gömrük, təhsil və digər müvafiq sahələrlə bağlı siyasətin təkmilləşdirilməsi, yeni iş yerlərinin açılmasını stimullaşdıran prioritetləri əks etdirir.

**Elbrus CƏFƏRLİ**

# Ünvanlı sosial yardım alanların sayı azalır

*Ölkədə aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsi məqsədilə verilən yardımlar yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur*

***Şəffaflığın təmin edilməsi***

Sosial yardımların təyin edilməsi və aztəminatlı ailələrin bu yardımları almasında əvvəllər bir sıra maneələr ortaya çıxırdı. Bu problemin həlli sosial yardımların verilməsi prosesi ictimailəşdikdən sonra mümkün oldu.

Ötən ilin sonlarından ünvanlı dövlət sosial yardımların təyinatında şəffaflığın və ictimai nəzarətin təmin olunması məqsədilə ünvanlı sosial yardım alan ailələrin siyahısını və tələb olunan sənədləri ƏƏSMN rəsmi internet saytının (www.mlspp.gov.az) üz səhifəsində yerləşdirdi. Vətəndaşlardan xahiş edildi ki, adları siyahıda olan, lakin gəlirlərini gizlətməyi bacaran ailələrdən tanıdıqları olarsa, ƏƏSMN-ə məlumat verilsin. Beləliklə, sosial yardım alanların sayı azalmağa doğru getdi. Bu azalma özünü rəqəmlərdə də açıq göstərir. Nazirlikdən verilən məlumata görə, bu il oktyabrın 1- i tarixinə ölkəmizdə 112092 ailəyə (491409 nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı təyin olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,1% (23107 ailə) azdır. Ünvanlı sosial yardımların bir ailəyə düşən orta aylıq məbləği isə 129,82 manatdan 137,67 manata yüksəlib. Hazırda ünvanlı dövlət sosial yardımı alan ailələrin 33935-i tərkibində 3 və daha çox usagı olan ailələrdir. Yardımla təmin olunan ailələrdə yaşı 18-dək ailə üzvlərinin sayı 247879 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək ailə üzvlərinin sayı 5709 nəfər, 1 yaşadək ailə üzvlərinin sayı 4982 nəfər təşkil edir.



***Tələb olunan sənədlər***

Nazirliyin internet ünvanında yerləşdirilmiş tələb olunan sənədlərə ailə üzvlərinin şəxsiyyət vəsiqələrinin surətləri, ailə tərkibi haqqında yaşayış yerindən arayış, nikah, boşanma, doğum və ya ölüm haqqında şəhadətnamələrin surətləri, qəyyumluqda (himayədə) olan uşaqlar üçün qəyyumluq (himayəçilik) haqqında rayon (şəhər) icra hakimiyyəti başçısının sərəncamının surəti, ailə üzvünün müddətli həqiqi hərbi xidmətdə olması barədə hərbi komissarlıqdan arayış, ailə üzvünün ali, orta ixtisas və ya ilk peşə-ixtisas təhsili alması barədə təhsil müəssisəsinin arayışı, hər bir ailə üzvünün qazancı barədə müvafiq icra hakimiyyəti orqanının arayışı, ailə üzvləri tərəfindən əmlakın icarəyə verilməsi və ya icarəyə götürülməsi barədə müqavilənin surəti, ailəyə və ya hər hansı ailə üzvünə məxsus torpaq üzərində hüquqları təsdiq edən sənədlər aiddir.

Sosial yardımlar hər bir ailə üzvü üçün hesablanır. Lakin ailənin bəzi üzvləri (ailə üzvlərindən tam dövlət təminatında olan, müddətli həqiqi hərbi xidmətdə olan, cəzaçəkmə müəssisələrində cəza çəkən, axtarışda olan şəxslər, eləcə də ölkə ərazisində yaşamayan Azərbaycan Respublikası vətəndaşları və əcnəbilər) müavinət təyin edilərkən nəzərə alınmırlar.

***Yardımın verilməsindən imtina halları***

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən başlayaraq 1 il müddətinə təyin olunur. Sosial yardımın verilməsindən imtinaya əsas verən bir sıra hallar var. Məsələn, yardım üçün müraciətdən 1 il əvvəl ailə mənzil aldıqda və ya respublika üzrə təsdiq edilmiş yaşayış minimumunun 10 mislindən çox məbləğdə təhsil haqqı ödədikdə və ya alqı-satqı etdikdə, ailənin istifadəsində nəqliyyat vasitəsi olduqda (dövlət tərəfindən reabilitasiya məqsədləri üçün verilmiş nəqliyyat vasitələri istisna olunmaqla), ailənin orta aylıq gəlirinin 50%-indən çox məbləğdə aylıq kredit öhdəçiliyi olduqda, ailənin əmək qabiliyyətli, işləməyən üzvü Baş Məşğulluq İdarəsinin yerli orqanı tərəfindən təklif olunmuş iki münasib işdən imtina etdikdə sosial yardımın verilməsindən imtina edilir.

Sosial yardımın təyin edilməsindən imtina edildiyi barədə komissiyanın qərarı çıxarıldığı vaxtdan 3 gündən gec olmayaraq sosial yardım verilməsindən imtina edilməsinin səbəbləri göstərilməklə ailəni təmsil edən şəxsə bildiriş verilir.

Sosial yardımın təyin olunmamasına, məbləğinin azaldılmasına və ya verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar barədə məlumat verilmədiyi təqdirdə, həmin ailə 1 il müddətinə sosial yardım almaq hüququnu itirir.

Aztəminatlı ailəni təmsil edən şəxs vəfat etdikdə və ya ailənin tərkibində və gəlirində sosial yardım məbləğinin dəyişilməsinə və ya verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar baş verdikdə, sosial yardımın məbləğinin azaldılmasına və ya verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar barədə məlumat verilmədiyi və ya tam və ya düzgün olmayan məlumat verildiyi aşkar olunduqda, sosial yardım ailə tərəfindən 3 aydan çox alınmadıqda sosial yardımın verilməsi dayandırılır.

**AYTƏN**

## vergi taqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 oktyabr - «(1)» və «(2)».
20 oktyabr - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

♦ *Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

♦ *İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| SN | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | BŞVD | «H.Z.TAĞIYEV ADINA» kiçik müəssisəsi | Bakı şəhəri Nizami rayonu | İcarə obyekti |
| 2 | BŞVD | «Kres GmbH autohaus» MMC | Bakı şəhəri Nərimanov rayonu | Avtomobil satışı və texniki xidmət |
| 3 | BŞVD | «Qranit QP» MMC | Bakı şəhəri Binəqədi rayonu | Ofis |
| 4 | BŞVD | «Diplomat» müəssisəsi | Bakı şəhəri Sabunçu rayonu | Avtodayanacaq |
| 5 | BŞVD | «Kəjal» çoxsahəli firması | Bakı şəhəri Səbail rayonu | «Suvenir» mağazası |
| 6 | BŞVD | Hüseynov Rövşən Rəhman oğlu | Bakı şəhəri Nəsimi rayonu | «Gülüstan» şadlıq evi |
| 7 | BŞVD | «Tmp-7m» MMC | Bakı şəhəri Suraxanı rayonu | Avtoservis və icarə obyekti |
| 8 | BŞVD | «Aygün» şirkəti | Bakı şəhəri Sabunçu rayonu | İcarə obyekti |
| 9 | BŞVD | «Həsrət» kiçik müəssisəsi | Bakı şəhəri Səbail rayonu | İcarə obyekti |
| 10 | BŞVD | «Proqress» | Bakı şəhəri Səbail rayonu | Topdansatış ticarət müəssisəsi |
| 11 | BŞVD | «Çaysel» MMC | Bakı şəhəri Nəsimi rayonu | İcarə obyekti |
| 12 | BŞVD | «Besttrans» MMC | Bakı şəhəri Binəqədi rayonu | Ofis |
| 13 | BŞVD | «Messenat holdinq şirkətlər qrupu» MMC | Bakı şəhəri Nəsimi rayonu | Ofis |
| 14 | BŞVD | Əliyarov Emin Məsum oğlu | Bakı şəhəri Binəqədi rayonu | Taxta sexi |
| 15 | BŞVD | Dimovskaya Tatyana Nikolayevna | Bakı şəhəri Yasamal rayonu | «Pardali» çay evi |
| 16 | BŞVD | Hüseynova Şəfəq Vaqif qızı | Bakı şəhəri Sabunçu rayonu | Atelye |
| 17 | BŞVD | Şərifov Ruslan İsmayil oğlu | Bakı şəhəri Nizami rayonu | Kolbasa sexi |
| 18 | BŞVD | Mahmudov Mənaf Zülfəli oğlu | Bakı şəhəri Sabunçu rayonu | Mağaza |
| 19 | BŞVD | İsmayilova Məlahət Əlfəsiyyə qızı | Bakı şəhəri Xətai rayonu | Ərzaq mağazası |
| 20 | 2 ƏVD | «Təmirmaş-2» MMC | Abşeron rayonu | Çuqun məmulatlarının istehsalı |
| 21 | 5 ƏVİ | Bəkirov Maarif Arif oğlu | Salyan rayonu | «Bakı-petrol» yanacaqdoldurma məntəqəsi |
| 22 | 5 ƏVİ | Zeynalov Tənhab Adışirin oğlu | Salyan rayonu | Telefon mağazası |
| 23 | 6 ƏVİ | «Zövq» kommersiya firması əhaliyyə məişət xidməti | Lənkəran rayonu | Avtoservis xidməti, fotoatelye, bərbərxana və gözəllik salonu, istehsalat obyekti |
| 24 | 6 ƏVİ | Əhədov Yasər Hafiz oğlu | Masallı rayonu | Ərzaq mağazası |
| 25 | 11 ƏVD | «Yevlax-mərkəzi bazar» ASC | Yevlax rayonu | Mağaza |
| 26 | 11 ƏVD | «Bərdə qum-çınqıl» ASC | Bərdə rayonu | Qum-çınqıl istehsalı |
| 27 | 12 ƏVD | «Gəncə Tikinti-Quraşdırma» ASC | Gəncə şəhəri | İcarə obyekti |
| 28 | 13 ƏVİ | Qax rayon istehsal-istehlak kooperativi | Qax rayonu | Ofis |
| 29 | 14 ƏVİ | «Qazax aqrotexservis» ASC | Qazax rayonu | Avtoservis xidməti |
| 30 | 14 ƏVİ | Tovuz koopunivermaq | Tovuz rayonu | Qarışıq mallar mağazası |

vergi cinayətlari

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Tikinti-quraşdırma işləri sahəsində fəaliyyət göstərən «Sahibtac» MMC tikinti bazarına iddialı girsə də, iflasa uğraması uzun çəkməyib. Şirkətə Bakı şəhəri ərazisində köhnə tikililərin sökülməsi həvalə edilib və sakinlərin köçürülməsi şərti ilə ikibloklu 14 mərtəbəli yaşayış binasının tikintisi üçün yer ayrılıb. Şirkət həmin ərazidə birinci mərtəbəsi qeyri-yaşayış sahəsi olan 65 mənzilli təkbloklu bina inşa edib.

Müəssisənin direktoru Əsəd Kazımov və şəriki Vahid Piriyev 57 mənzilin satışından daxil olan gəlirlərdən vergiləri ödəməmək məqsədilə müxtəlif vasitələrə əl atıblar. Pul vəsaitlərini binanın inşa olunmasına, torpaqların alınmasına sərf etdiklərini və buna görə də vergiləri tikinti başa çatdıqdan sonra ödəyəcəklərini əsaslandırmağa çalışıblar. Hesabat sənədlərində mənzillərin satışından əldə edilən gəlirlərin müəssisəyə investisiya qoyuluşu kimi sənədləşdirilməsi öz əksini tapıb.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılmış araşdırmalar nəticəsində «Sahibtac» MMC-nin rəhbərliyinin vergi bəyannamələrinə gəlirləri və xərcləri bilə-bilə təhrif etməklə 727.009,33 manat məbləğində əlavə dəyər vergisinin dövlət büdcəsinə ödəməkdən yayındırması faktı təsdiq olunub. Ə.Kazımovun otağında gizlədilən mühasibat və alqı-satqıya, icarəyə, müxtəlif iş və xidmətlərə dair materiallarda bir-biri ilə ziddiyət təşkil edən sənədlər aşkar olunub. Yoxlama predmeti üzrə tərəflərin Vergi Məcəlləsinin 16, 53, 72, 77, 78 və 174-cü maddələrinin tələblərini pozmaqla yanaşı, maliyyə və inzibati qanunvericiliyin tələblərinə riayət etmələri müəyyənləşib.

Beləliklə, baş vermiş vergi cinayəti üzrə Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsinə əsasən, «Sahibtac» MMC-nin rəhbərliyi barəsində cinayət işi açılıb.

MMC-nin rəhbəri Ə.Kazımov əvvəlcə cinayət hallarının baş vermədiyini iddia etməyə çalışsa da, cinayət işi şahid ifadələri, ekspert rəyləri, fakt və dəlillər, digər istintaq materialları ilə tam sübuta yetirilib.

Səbail Rayon Məhkəməsinin hökmü ilə Əsəd Kazımov 2 il, Vahid Piriyev isə 3 il müddətinə azadlıqdam məhrum edilib.

**ELBRUS**






Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Ənənəvi (köhnə) hesablar planının tətbiqinin aparılan auditə neqativ təsiri

***(Yeni və ənənəvi hesablar planının müqayisəli təhlili əsasında izahlar)***

Hesabatların təqdimatındakı təcrübə göstərir ki, hesabların adlarının və buna müvafiq hesabatların elementlərinin adlarının məzmunu (adlandırılma forması) maliyyə informasiyalarının mənimsənilməsində anlaşılmazlığı aradan qaldıran amildir. Köhnə hesablar planında hesabların adlandırılmasında anlaşılmazlıq yaradan hallar vardır. Adətən hesablara verilən adlar hesab daxilində gedən əməliyyatların xarakterinə uyğun gəlməlidir. Köhnə hesablar planında nəticə etibarı ilə debitor borcları və kreditor borcları əks etdirən hesabların adlarının sonluğunda «hesablaşmalar» ifadəsi verilmişdir. Məsələn, «malsatan və podratçılarla hesablaşmalar» hesabı və ya «alıcı və sifarişçilərlə hesablaşmalar» adlı iki hesabı analiz edək. Hər bir hesabın kənardan oxunuşunda konkret mənanı tapmaq mümkün deyildir və hər ikisində həm debet, həm də kredit qalığın olması ehtimalı inanılandır. Hesabların adlarında hansı hesabın aktiv və ya passiv olması ilk baxışda müəyyənləşmir. Bu hesabların adlarının oxşarlığı daha çoxdur, nəinki fərqliliyi.

Beynəlxalq standartlarda qəbul olunan hesab adlarında isə debitor borcları və kreditor borcları əks etdirən hesabların adlarının sonluğunda müvafiq olaraq «debitor borcları» və ya «kreditor borcları» sözləri verilmişdir. Məsələn, «malsatan və podratçılarla hesablaşmalar» hesabının adı «malsatan və podratçılara olan kreditor borcları» hesabı və ya «alıcı və sifarişçilərlə hesablaşmalar» hesabının adı «alıcı və sifarişçilərin debitor borcları» hesabı kimi verilmişdir. Həqiqətən, hesab adlarının bu cür verilməsi hesab haqqında demək olar ki, bütün bilgi və mənaları verir. Hesabın adının «alıcı və sifarişçilərin debitor borcları» kimi verilməsi o deməkdir ki, bu hesabın yalnız debitor qalığı ola bilər, birbaşa aydındır ki, aktiv hesabdır, hətta mühasibat uçotu sahəsini bilməyən şəxsə də aydın olur ki, burada söhbət yalnız qalıqlardan gedir. Hesabın adının bu cür verilməsi maliyyə sahəsini yeni öyrənənlər üçün daha anlaşıqlıdır.

Yeni hesablar planında «alıcı və sifarişçilərin debitor borcları», «törəmə müəssisələrin debitor borcları», «işçi heyətinin debitor borcları», «icarə ödənişləri üzrə debitor borcları», «tikinti müqavilələri üzrə debitor borcları», «faizlər üzrə debitor borcları», «digər debitor borclar» kimi adlarla hesablar əks etdirilmişdir. Adların bu cür verilməsində daha məntiqli görünən alacağımız məbləğlərin yerinin müəyyən olunması və bunların istiqamətləridir, həmçinin bu hesabların hesablar planında bir yerdə yerləşmələridir.

Yeni hesablar planında «Tikinti müqavilələri üzrə debitor borcları» hesabı və «Tikinti müqavilələri üzrə kreditor borcları» hesabı adlı iki öxşar adlı hesab vardır. Bu hesabların adlarındakı fərq sonluqda verilmiş «debitor borcları» və «kreditor borcları» sözləridir. Asanlıqla aydın olur ki, sonluğu «debitor borcları» ilə tamamlanan hesabda söhbət kənar sifarişçilərə yerinə yetirilmiş işlərə görə alınacaq məbləğlər, sonluğu «kreditor borcları» ilə tamamlanan hesabda isə söhbət kənardan qəbul edilən tikinti işlərinə görə veriləcək məbləğlərdən gedir. Köhnə hesablar planının xətti ilə bu iki hesab bir hesab daxilində «Tikinti müqavilələri üzrə hesablaşmalar» adı altında birləşdirilə bilərdi, çünki adın bu formada verilməsi hesab daxilində gedən əməliyyatları ilk baxışda çözməkdə çətinlik yaradır.

Köhnə hesablar planı ilə uçot aparılan müəssisələrdə audit zamanı bəzən «kreditor borcları» əks etdirən (etdirməli olan) hesabların debet qalığının qalmasının şahidi olmaq mümkündür. Məsələn, 68 saylı «dövlət büdcəsi ilə hesablaşmalar» hesabının debet qalığı qaldığı halda, audit zamanı bu hesabın qalığını digər, yəni başqa bir adlı aktiv hesaba dəyişdirmək lazım gəlir. Belə bir hesabı köhnə hesablar planının xəttinə görə yerini təyin etmək çətindir. Lakin 68 saylı «dövlət büdcəsi ilə hesablaşmalar» hesabının debet qalığını yeni hesablar planında «sair qısamüddətli aktiv» formasında 243 saylı «verilmiş qısamüddətli avans» başlıqlı hesab daxilində «vergi aktivi» və ya «verilmiş avans vergi» kimi nəzərə alınması daha düzgün və anlaşılandır.

beynəlxalq panoram

# Rusiyada sosial müdafiə müəssisələri mənfəət vergisindən azad ediləcək

*Hökumət komissiyası vətəndaşlara sosial yardım göstərilməsi ilə məşğul olan təşkilatların mənfəət vergisinin sıfır dərəcə ilə vergiyə cəlb olunması təklifini bəyənib. Onların bu vergidən 2015-ci il yanvarın 1-dən azad olunacağı planlaşdırılır. Müvafiq qanun layihəsini RF-nin Əmək Nazirliyi təklif edib.*

Vergi Məcəlləsinə əsasən, təhsil və tibb sahəsində fəaliyyət göstərən təşkilatların mənfəəti vergiyə sıfır dərəcə ilə cəlb edilir. Məcəlləyə vətəndaşlara sosial xidmət göstərilməsi ilə məşğul olan təşkilatların mənfəətinə sıfır dərəcə verginin tətbiqinin xüsusiyyətlərini müəyyənləşdirən maddənin daxil edilməsi də təklif olunur.

Bundan başqa, Əmək Nazirliyinin təklif etdiyi qanun layihəsində ahıllara, əlillərə, baxımsız uşaqlara və sosial xidmətə ehtiyacı olan başqa vətəndaşlara xidmət göstərən və yardım edən təşkilatların ƏDV-dən azad olunması üçün Vergi Məcəlləsinin terminologiyasının dəqiqləşdirilməsi nəzərdə tutulur.

Layihə 15 aprel 2014-cü ildə hökumətin qərarı ilə təsdiq olunmuş «Vətəndaşlara sosial dəstək» Dövlət Proqramının yerinə yetirilməsi çərçivəsində hazırlanıb. Bu proqram biznesin, sosial yönümlü qeyri-kommersiya təşkilatlarının, xeyriyyəçilərin və könüllülərin əhaliyə sosial xidmət göstərilməsinə cəlb edilməsini nəzərdə tutur.

Qeyd edək ki, yaşı 60-dan yuxarı olanlar üçün dünyada ən əlverişli ölkələr Norveç, İsveç və İsveçrədir. Bu onluğa Kanada, Almaniya, Niderland, İslandiya, ABŞ, Yaponiya və Yeni Zelandiya da daxildir.



# Fransada bir sıra mehmanxanaların turizm vergisinə yenidən baxılacaq

*Ölkədə üç və daha çox ulduzlu mehmanxanalarda qalmaq üçün vergi artırılacaq. Daha dəqiq desək, üçulduzlu mehmanxanalarda 1 avro əvəzinə 2 avro, dördulduzluda 1,50 avro əvəzinə 2,50 avro, beşulduzluda 3 avro vergi alınacaq.*

Turizm vergisi ən böyük həddə «saray» dərəcəli otellərdə çatacaq və sutkada adambaşına 3,50 avro təşkil edəcək.

Verginin həcmi yalnız bir və ikiulduzlu otellərdə dəyişməyəcək, hazırda həmin otellərdən müvafiq olaraq 75 və 90 avrosent turizm vergisi tutulur. Hökumətin mövqeyinə görə, üç və ya daha çox ulduzlu otellərdə qalan qonaqların əsas hissəsini işgüzar ezamiyyətə gələn fransızlar təşkil etdiyi üçün bu artım xarici müştərilərə ciddi təsir göstərməyəcək.

# Litvada aksizlər artacaq

*Maliyyə Nazirliyi ölkənin 2015-ci il üçün büdcə layihəsində tütün, alkoqol və təbii qaza aksizlərin artırılmasını nəzərdə tutur.*



2015-ci ildə Litvanın büdcə gəlirlərinin ümumi məbləğində aksiz yığımları 1,086 mlrd. avro təşkil edir. Avropa İttifaqının yardımı ilə Birlik ölkələrində bütün büdcələrin (dövlət, bələdiyyə) gəlirləri 9,215 mlrd. avro olmalıdır. Tütün və spirtli məhsullara aksizlərin artırılması martın 1-dən, təbii qaza isə iyulun 1-dən planlaşdırılıb.

Litvanın Maliyyə Nazirliyi gələn ildən isitmə sisteminə ƏDV güzəştinin müddətinin uzadılmamasını da təklif edir. Hazırda ölkədə güzəştli ƏDV dərəcəsi 9%,-dir, güzəşt ləğv edildikdən sonra isə 21% təşkil edəcək. Maliyyə Nazirliyinin hazırladığı büdcə layihəsində aztəminatlı ailələrə kompensasiyaların bələdiyyələr tərəfindən verilməsi nəzərdə tutulur - bunun üçün bələdiyyələrin kifayət məbləğdə vəsaiti olduğu qeyd edilir.

Xarici ölkələrin təcrübəsi

# Fransa Respublikasının vergi sistemi: *mənfəət vergisi*

***Stimullaşdırıcı güzəştlər***

*Fransada yeni yaradılan müəssisələrə güzəştlər:*

Güzəşt tətbiq olunan ərazilərdə 31 dekabr 2013-cü il tarixədək yaradılan yeni müəssisələrə 23 ay ərzində tam şəkildə mənfəət vergisindən azadolma güzəşti verilir. Növbəti hər 1 ildə mənfəət vergisinin həcmi müvafiq olaraq 75%, 50%, 25% azaldılır. Lakin mənfəət vergisinin azaldılmış məbləği 3 il ərzində 200 min avrodan artıq olmamalıdır.

Yeni yaranmış müəssisələrə münasibətdə seçim mexanizmi ayrıca qanunla tənzimlənir.

*Tədqiqat və inkişaf çıxılmaları:*

Müəssisənin tədqiqat və inkişaf işlərinə çəkdiyi xərclərin müəyyən hissəsinin gəlirdən çıxılmasına icazə verilir. Tətbiq olunan güzəştin illik məbləği bu məqsədlə çəkilmiş xərclər 100 mln. avroyadək olduqda 30%-ni, bundan artıq məbləğin 5%-ni əhatə edə bilər. Daha yüksək dərəcəli güzəşt 5 il ərzində heç vaxt bu güzəştdən istifadə etməyən müəssisələrə tətbiq olunur.

Tədqiqat və inkişaf çıxılmaları Fransa müəssisələrinə aşağıdakı şərtlər daxilində verilir:

1. Müəssisənin vergitutma bazası hesablanarkən tədqiqat və inkişaf xərcləri nəzərə alınmışdır;

2. Tədqiqat və inkişaf xərcləri Aİ və ya Avrozonadakı fəaliyyətlə əlaqədar çəkilmişdir (bu hal patentlərə şamil olunmur);

3. Tədqiqat və inkişaf xərcləri Fransa müəssisəsinin xaricdəki daimi nümayəndəliyi ilə əlaqədar deyildir.

2013-cü il yanvarın 1-dən kiçik və orta biznes nümayəndələrinə münasibətdə yeni tədqiqat çıxılması tətbiqinə başlanılmışdır. KOB-ların icazə verilən çıxılma məbləği çəkilən xərclərin 20%-ni təşkil edir. Xərclərin maksimum məbləği 400 min avro müəyyən edilmişdir.

*Yeni innovativ müəssisələr:*

KOB nümayəndələrinin 50% səhmlərinin fiziki şəxslərə məxsus olduğu halda, onların yaratdıqları yeni innovativ müəssisələrə xüsusi vergi rejimi tətbiq olunur. Bu rejim altında fəaliyyət göstərmək üçün həmin müəssisə ən azı 8 il ərzində tədqiqat və inkişaf fəaliyyəti ilə məşğul olub ümumi xərclərinin ən azı 15%-ni bu cür fəaliyyətə xərcləməlidir. 1 yanvar 2012-ci ildən bu rejim altında fəaliyyət göstərən müəssisələr ilk 12 ay ərzində tamamilə mənfəət vergisindən azad olunur, növbəti 12 ayda isə vergi məbləği 50% azaldılır.

*Vergidən azad olunan urbanizasiya zonaları:*

1 yanvar 2006-31 dekabr 2014-cü il tarixləri ərzində Fransada vergidən azad olunan urbanizasiya zonalarında yeni yaradılmış müəssisələr fəaliyyətə başladığı vaxtdan 5 il müddətində mənfəət vergisindən tam həcmdə, növbəti 5 il ərzində 60%, növbəti 2 il ərzində 40%, növbəti 2 il ərzində 20% həcmdə azad edilir. Tətbiq edilən azadolmanın 12 ay ərzində həcmi isə 100 min avrodan artıq olmamalıdır. Hazırda Fransada 2006-cı il tarixli müvafiq qanuna əsasən 15-dək belə zona fəaliyyət göstərir.

Fransada vergi güzəşti tətbiq olunan zonalar




*Dənizarxası departamentlərə güzəştlər:*

Fransanın Dənizarxası departamentləri Fransız Qvianası və Qvadelupa, Martinika və Reyunyon adalarına münasibətdə investisiya çıxılmaları və bir sıra sabitləşdirmə güzəştləri mövcuddur.

***Vergi bəyannamələrinin təqdimedilmə müddəti***

Müəssisələr maliyyə ilinin bağlanmasından sonrakı 3 ay ərzində mənfəət vergisi bəyannaməsini təqdim etməlidirlər. Adətən, vergi ödəyicisinin özünüqiymətləndirmə metodu tətbiq edilir. Vergi ödəyicisi avans ödənişləri və digər çıxılmaları nəzərə almaqla vergi öhdəliyini özü hesablayır.

***Verginin ödənilmə müddəti***

Müəssisələr 15 mart, 15 iyun, 15 sentyabr və 15 dekabr tarixlərində avans ödənişləri etməlidirlər. Avans ödənişləri ən yaxın bağlanmış maliyyə ilində mövcud olmuş vergi tutulan gəlirə uyğun hesablanır. Adi gəlirlər üzrə avans ödənişləri bu cür gəlirlərin 8,33%-i (standart dərəcə ilə vergiyə cəlb edilən kapital gəlirləri də daxil olmaqla), patentlərdən royaltilər və buna oxşar gəlirlərin 4,75%-i mənfəətin ilk 38.120 avroyadək olan hissəsinin 3,75% həcmində ödənilir. Bəyannamə təqdim edildikdən sonra 30 gün ərzində balans ödənişi edilə bilər. İllik dövriyyəsi 250 mln. avrodan artıq olan müəssisələr üçün sonuncu avans ödənişinin ödənilməsinin xüsusi qaydası mövcuddur.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*



krossvord

**Yuxarıdan aşağı:** 1.Ovqatın yüksək səviyyəsi, cuşa gəlmək; 2.Yeməli xərçənglər. Qısqaclı lobster kimi tanınır; 3.Latın dilində birinci mənasını verir; 4.Antik dövrdə qeybdən xəbər verən kahin, falçı, rəmmal; 5.Müəyyən qrup və şəxslərin, korporativ dairələrin, eləcə də dövlətlərin maraqlarını təmin edən təşkilati qurum; 6.Diatonik qammada dördüncü pillə; 9.Mərkəzi sinir sisteminin proqressiv pozulması, zədələnməsi nəticəsində huşun itməsi, xarici qıcıqlara qarşı reaksiyasızlıq, get-gedə dərinləşən tənəffüs, qan dövranı və orqanizmin digər həyati funksiyalarının pozulması ilə xarakterizə olunan ağır patoloji vəziyyət; 13.Şəki şəhərinin keçmiş adı; 15.Əyləncəli idman oyunu; 16.Rusiyada geniş yayılmış xəz və mahuddan tikilmiş papaq; 17.Alıcı ilə satıcı arasında əlaqə yaradan şəxs; 18.Kanadanın paytaxtı; 20.Üsul; 21.Bina və ya tikilinin üz hissəsi, xarici tərəfi.

**Soldan sağa:** 1.Ellipsin öz oxlarından birinin ətrafında fırlanması nəticəsində yaranan səth; 5.Bərdə rayonunda kənd; 7.Afrika ilə Asiya arasında səyahət edərkən fantastik macəralara düşən əfsanəvi dənizçi, «Min bir gecə» nağıllar toplusunun əsas personajlarından biri; 8.Osmanlı imperiyasında sarayda idarə, bölmə rəhbəri, başçısı. Türklərdə yaşca böyük xanımlara müraciət forması; 10.Karib dənizində, Venesuelanın yaxınlığında yerləşən və Kiçik Antil adalarına daxil olan Niderlanda məxsus ada-dövləti; 11.Xəyalpərəst şəxs; 12.Nümayiş etdirmək üçün üzərinə eksponatlar qoyulan lövhə, dəzgah, piştaxta; 14.Müasir döyüş sənəti, mübarizə idmanı və özünü silahsız qoruma sistemi; 19.Formula-1 üzrə yeddiqat dünya çempionu; 21.Məşhur alman əfsanəsinin qəhrəmanı, şeytanla müqavilə bağlamış kimyagər obraz; 22.Hərbi ittifaq; 23.Mexaniki dalğaların qatı, maye və qaz mühitində yayılmasını, xüsusiyyətlərini, olduqları şəraitlə uyğunlaşmalarını, canlılar üzərindəki fizioloji və psixoloji təsirlərini araşdıran elm sahəsi; 24.Yunan mifologiyasında yeraltı dünya tanrısı; 25.Müəyyən tarixi dövr ərzində elmdə mövcud konseptual sxem, problemin qoyuluşu, həlli və öyrənilməsi modeli, tədqiqat metodunu bildirən əsas elmi baxış, cərəyan.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İndium; 2.Liankur; 3.Moped; 4.Barens; 5.Omaha; 6.Alışar; 9.Cami *(Əbdürrəhman)*; 13.Tağı; 15.Veteran; 16.Şkiper; 17.Sultan; 18.Qrafit; 20.Rolik; 21.Maori.

**Soldan sağa:** 1.İslamabad; 5.Oda; 7.Diaspora; 8.Rakı; 10.Urkad; 11.Niaqara; 12.Orutu; 14.Kirvə; 19.Koroğlu; 21.Motor; 22.Pele; 23.Etnoqraf; 24.Rok; 25.Pansionat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

idman

# Dağ velosipedi üzrə sınaq yarışı başa çatıb

*Oktyabrın 18-də Bakıda birinci Avropa Oyunlarının proqramına daxil olan dağ velosipedi idman növü üzrə sınaq yarışının qalibləri müəyyənləşib.*

«Bakı-2015» Avropa Oyunlarının Təşkilat Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə Dağ Velosipedi Parkında keçirilən yarış çətinlik dərəcəsinə görə Beynəlxalq Velosipedçilər İttifaqının 3-cü kateqoriyasına aiddir.

Azərbaycan, Gürcüstan, Yunanıstan, Livan, Rusiya, İsveçrə, Türkiyə və Ukrayna velosipedçilərinin yarışdıqları turnirdə əvvəlcə qadınlar mübarizə aparıblar. Uzunluğu 4,1 kilometr olan zolaq boyunca 6 dövrə vuran qadınların yarışında marşrutu 1 saat 24 dəqiqə 46 saniyəyə qət edən Ukrayna idmançısı Yana Belomoina birinci olub. İsveçrə millisinin üzvləri Katrin Stirnemann və Linda İndergand müvafiq olaraq ikinci və üçüncü pillələrdə qərarlaşıblar.



Azərbaycan yığma komandası yarışda 3 kişi velosipedçi - Aqşin İsmayılov, Murad Sultanov və Orxan Məmmədov ilə təmsil olunub. Kişi velosipedçilərin mübarizəsində isveçrəli Martin Fanger marşrutu 1 saat 37 dəqiqə 52 saniyəyə qət edərək yarışın qalibi adını qazanıb. Digər isveçrəli idmançı Mark Stutzmann ikinci, yunanıstanlı Dimitrios Antoniadis isə üçüncü olublar.

Qeyd edək ki, kişi velosipedçilər uzunluğu 4,1 kilometr olan zolaq boyunca 7 dövrə vurublar.

Yarışdan sonra Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov jurnalistlərə müsahibəsində gələn ilin fevralında paytaxtda BMX üzrə velotrekin istifadəyə veriləcəyini bildirib. Vitse-prezident vurğulayıb ki, dövlətimizin başçısı İlham Əliyevin tapşırığı ilə Bakıdakı Su İdman Sarayının yaxınlığında qapalı velosiped treki tikiləcəkdir. Bu, velosiped idmanına dövlət qayğısının daha bir nümunəsidir. Dağ Velosipedi Parkında bundan sonra ölkə əhəmiyyətli və beynəlxalq yarışların təşkil olunacağını vurğulayan S.Ələkbərov bu məkanın gənclər üçün həmişə açıq olduğunu diqqətə çatdırıb.

# Güləşçilərin reytinq siyahısı

*Dünya Güləş Birliyi (UWW - United World Wrestling) təqvim planı üzrə sentyabrda keçirilən dünya çempionatı və Asiya Oyunlarının nəticələrinə əsasən, bütün güləş növlərində güləşçilərin reytinq siyahısını açıqlayıb.*

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, yunan-Roma güləşi üzrə reytinq siyahısına 9 idmançımızın adı daxil edilib. Ən yaxşı göstərici dünya çempionatının gümüş mükafatını qazanan Saman Təhmasibiyə (85 kq) məxsusdur. O, reytinqdə də 2-ci yerdədir. Dünya çempionatının bürünc mükafatçıları Rəsul Çunayev (71 kq) 3-cü, Elvin Mürsəliyev (75 kq) 5-ci yerdə qərarlaşıb. Dünya çempionatını 5-ci sırada tamamlayan Həsən Əliyev (66 kq) isə reytinqdə 7-ci pillədə qərarlaşıb.

Qadın güləşçilərin reytinq sıralamasında 4 güləşçimizin adı var. Dünya çempionatının gümüş mükafatçısı Yuliya Ratkeviç (60 kq) reytinqdə ikinci, bürünc mükafatçısı Mariya Stadnik isə 4-cü sıradadır.



Sərbəst güləşçilərimizdən 11 nəfəri reytinq siyahısında yer alıblar. Ən yüksək göstərici isə dünya çempionu Hacı Əliyevə (61 kq) məxsusdur. O, Daşkənddə öz çəkisində bütün rəqiblərindən üstün olduğu üçün reytinqdə ilk sırada qərarlaşıb. Dünya çempionatının gümüş mükafatını qazanan Xetaq Qazyumov (97 kq) isə ikinci yerdə qərarlaşıb.

# «Qitələrarası Kubok» beynəlxalq turnirində üç medal

*Dağıstanın Xasavyurt şəhərində keçirilən sərbəst güləş üzrə sayca 6-cı «Qitələrarası Kubok» beynəlxalq turniri başa çatıb.*

Turnirdə iştirak edən yığma komandamızın üzvləri 2 gümüş və 1 bürünc medala sahib olublar.

Məşqçilər David Kurtsiya və Saypulla Absaidovun rəhbərliyi altında Xasavyurtda mübarizə aparan güləşçilərimizdən Məhəmməd Müslümov (65 kq) və Aleksandr Qostiyev (86 kq) finaladək inamlı təsir bağışlayıblar. Ancaq finalda qələbəni əldən verən təmsilçilərimiz gümüş medalla kifayətləniblər. Bürünc medalı isə yığmamıza 74 kiloqram çəki dərəcəsində mübarizə aparan Cəbrayıl Həsənov qazandırıb.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakimlər Qərib Əliyev, Xanmirzə Məlikəliyev, Rövşən Azadov və Əbdul Nuriyev təmsil ediblər.

# Avropa çempionatında 4-cü yer

*Fransanın Qvadelupa adasında velosiped idmanının trek növü üzrə Avropa çempionatı başa çatıb. Qitənin 30-dan artıq ölkəsinin iştirak etdiyi yarışda Azərbaycan 3 velosipedçi ilə təmsil olunub.*



Təmsilçilərimizdən ən yüksək nəticə Olqa İsmayılovaya məxsusdur - o, 200 və 500 metr məsafəyə sprint yarışlarında 4-cü yeri tutmaqla Azərbaycanın bu növ üzrə qitə çempionatlarında ən yüksək göstəricisinə imza atıb. Velosipedçimiz 200 metr məsafəyə mübarizə zamanı təsnifat yürüşündə 11.596 saniyə göstərici ilə 21 iştirakçı arasında ən yüksək nəticə əldə edib. 1/8 finalda Ukrayna, 1/4 finalda isə Litva idmançısından güclü olan Olqa İsmayılova yarımfinala vəsiqə qazanıb. Amma bu mərhələdə İspaniya təmsilçisinə uduzan velosipedçimiz, bürünc medal uğrunda həlledici yürüşlərdə Almaniyalı olimpiya çempionu Kristina Foqelin müqavimətini qıra bilməyib.

500 metr məsafəyə sprint yarışında isə O.İsmayılovaya bürünc medala sahib olmaq üçün cəmi 0.111 saniyə çatmayıb - o, 34.953 saniyə göstərici ilə bu növdə də 4-cü yeri tutub. Xatırladaq ki, bu vaxtadək trek üzrə Avropa çempionatlarında ən yüksək nəticəmiz 2005-ci ilə təsadüf edirdi - 12-ci yer.

Digər qadın velosipedçimiz Yelena Pavluxina 3000 metr məsafəyə fərdi izləmə yarışında 22 nəfər arasında 12-ci, skretçdə isə 28 nəfər arasında 13-cü yeri tutub. Qeyd edək ki, yığma komandamız Qvadelupadan birbaşa Meksikaya yollanacaq və noyabrın 8-9-da bu ölkədə keçiriləcək Dünya Kubokunun birinci mərhələsinə hazırlaşacaq.

# Gimnastlarımız beynəlxalq turnirlərdə...

*Yaponiyanın paytaxtı Tokioda bədii gimnastika üzrə «AEON Cup-2014» ənənəvi klublararası dünya çempionatı başa çatıb. Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, çempionatda 18 klub iştirak edib. Hər bir komandanın tərkibinə üç gimnast daxil olub ki, bunlardan ikisi senyor, biri isə yuniordur.*

Azərbaycanın «Ocaq Sport Club» klubu Marina Durunda, Gülsüm Şəfizadə və Jalə Piriyevanın timsalında yarışların yekununda beşinci yeri tutub.

Yunior J.Piriyeva lent, top, gürz və halqa ilə çıxışına görə hakimlərdən yüksək qiymət alaraq fəxri kürsünün 3-cü pilləsinə qalxıb. Rusiyalı Veronika Polyakova birinci, Belarus təmsilçisi Mariya Trubaç isə ikinci yerə layiq görülüb.

Oktyabrın 17-də isə Qazaxıstanın paytaxtı Astana şəhərində bədii gimnastika üzrə «Kubok Julduz-2014» III beynəlxalq turnir başa çatıb. Yarışlarda 1988-ci il təvəllüdlü və daha aşağı yaş qrupundan ibarət 9 ölkənin idmançısı iştirak edib.

Azərbaycan turnirdə Sevil Məmmədovanın rəhbərliyi altında 8 gənc idmançı ilə təmsil olunub. Ölkəmizi hakimlər korpusunda Fatimə Şəfizadə və Kamilla Məmmədova təmsil ediblər. Gənc gimnastlarımızdan olan Fatimə Məmmədzadə yarışda əsl sürpriz göstərib: o, 2007-ci il təvəllüdlü idmançıların mübarizəsində alətsiz çıxış edərək qızıl medala sahib olub. 2004-cü il təvəllüdlü idmançıların yarışında isə Nərminə Səmədova topla və iplə tapşırıqlarda gümüş medala layiq görülüb. Turnirdə daha bir idmançımız - Alina Gözəlova (2006-cı il təvəllüdlü) alətsiz çıxış edərək yarışın gümüş mükafatçısı adını qazanıb.



mozaika

## Dünyanın ən böyük kompüter şəbəkəsi

texnologiya

*Noyabrın 16-dan 21-dək ABŞ-ın Yeni Orlean şəhərində illik «Supercomputing Conference» (SC14) konfransı keçiriləcək.*

Tədbirdə super hesablamalar sahəsində ən son nailiyyətlər nümayiş olunacaq, eyni zamanda dünyanın ən sürətli «SCinet» kompüter şəbəkəsinin tikintisinə razılıq veriləcək.

Bildirilir ki, buraxılış qabiliyyəti 1 terabit/saniyə təşkil edəcək şəbəkənin layihələndirilməsinə dünyanın müxtəlif guşələrindən mütəxəssislər cəlb olunacaq. Sərgi mərkəzində 145 kilometr optik-lif kabel çəkiləcək. Şəbəkənin tikilməsinə və ən müasir avadanlığın alınmasına 20 milyon dollardan çox vəsait xərclənəcək.



Xüsusiləşdirilmiş proqram təminatı real vaxt rejimində sərgi iştirakçılarına müxtəlif seqmentlərin yüklənməsini və şəbəkənin digər parametrlərini nümayiş etdirəcək. Layihəyə akademiya, dövlət təşkilatları və digər sahələr daxil olmaqla 58 təşkilatdan 110 könüllü cəlb olunub.

Şəbəkə eyni anda doqquz yüz yüksəkkeyfiyyətli sıxılmamış video-rolikin yayımını təmin edəcək.

## Məktəblilər və internet

araşdırma

*ESET şirkətinin sorğusuna əsasən, Azərbaycanda məktəblilərin 53%-i dərs saatlarında smartfon, evdə isə kompüter və noutbukların köməyilə şəbəkəyə çıxaraq bütün günü internetdə vaxt keçirirlər.*

Respondentlərin 22%-i bildirib ki, onların uşaqları məktəbdən qayıtdıqdan sonra yalnız bütün dərslərini etdikdən sonra internetdə oynayır və ya mesajlaşırlar. Rəyi soruşulanların 9%-i bu haqda mənfi düşünür. Onların fikrincə, uşaq internetə daxil olmamalıdır, internetdə onlayn oyunlara nəzarət edilməlidir, şəbəkədən istifadə yalnız iş məqsədi ilə əlaqədar mümkündür.

Araşdırma müəllifləri bildiriblər ki, məktəblilərin internetdən istifadə imkanını məhdudlaşdırmaqla bağlı sual universal cavab yoxdur və hər ailə bu məsələni istədiyi kimi həll edir. Onların fikrincə, məktəblinin hər bir addımına nəzarət qeyri-mümkündür, ancaq uşaqları mümkün risklər haqqında xəbərdarlıq etmək və bəzi təhlükələrdən qorumaq üsulları var.



**Müdriklər deyib ki...**

***«Mən mələk olmamışam, amma həmişə insan olmağa çalışmışam».***

*Çarli Çaplin (1889-1977)*

